RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



100

№ 125 (9292) 14 İYUN 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Tarixdə bənzəri olmayan qardaşlıq, dostluq, müttəfiqlik

◆ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri



## Rəsmi qarşılanma mərasimi

**Azərbaycan Respublikası Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 13-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

2

## Təkbətək görüş



İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.




## Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət



**Azərbaycan Respublikasında dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.**

4

## Şəhidlərin xatirəsi ehtiramla yad edilib



**Azərbaycan Respublikasında dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Şəhidlər xiyabanını ziyarət edib.**

4

## Azərbaycanın və Türkiyənin birinci xanımları İçərişəhərdə olublar



**İyunun 13-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Bakıda dünya mədəni irsi abidələrindən sayılan İçərişəhərdə olublar.**

4

## Geniş tərkibdə görüş



**İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü keçirilib.**

2

## Prezidentlərin bəyanatları



**İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

2

## Birgə işçi nahar

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan ilə birgə işçi nahar ediblər.



## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanışlıq

**İyunun 13-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Bakıdakı DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə tanış olublar.**

4



## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri

# Tarixdə bənzəri olmayan

## Rəsmi qarşılanma mərasimi

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan nümayəndə heyəti Türkiyə Prezidentinə, Türkiyə nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.





## Geniş tərkibdə görüş



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı salamlayan Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Sizin dövlət səfəriniz bizi çox məmnun edir. Şadam ki, prezident seçkilərindən qısa müddət sonra Siz Azərbaycana səfər edirsiniz. Bir daha Sizi qələbə münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar arzulayıram. Əminəm ki, növbəti illərdə də bizim dostluğumuz, qardaşlığımız hər zaman olduğu kimi yüksək səviyyədə olacaqdır.

Biz bu gün Sizinlə artıq təkbətək görüş əsnasında bir çox məsələləri müzakirə etdik. İndi heyətlər çərçivəsində də bunun davamı olacaq. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı - bu, beynəlxalq amildir, sabitlik, inkişaf və təhlükəsizlik amilidir. Prezident seçkilərində türk xalqının Sizə göstərdiyi inam bir daha Sizin uzun illər ərzində Türkiyə xalqına göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir. Siz bilirsiniz ki, Sizi Azərbaycanda çox sevirlər. Siz bizim əziz qonağımızsınız.

Mən yeni hökumət üzvlərini də ürəkdən təbrik etmək istəyirəm. Bir çoxlarını tanıyıram. Dünən artıq bizim nazirlər və digər yüksəksəviyyəli rəsmilər bir arada olmuşlar, bu gün də bu təmaslar davam edir. Hər zaman olduğu kimi, bizim görüşlərimiz həm görülən işlərə yekun vurur, eyni zamanda növbəti illərdə görüləcək işlərlə bağlı yol xəritəsi cızır. Əminəm ki, bu səfərdə də belə olacaq. Bir daha xoş gəlmisiniz.

❖❖❖

Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** dedi:

- Hörmətli cənab Prezident, əziz Qardaşım.

Hörmətli heyət üzvləri.

Sizləri öz adımdan, heyətim adından ən səmimi hisslərimlə salamlayıram. Millətimizin iradəsi ilə yenidən prezident seçildikdən sonra hər zamankı adətimiz üzrə əvvəlcə Şimali Kipri ziyarət etdik, sonra da dərhal Bakıya gələrək Sizinlə bir arada olduq. Göstərdiyiniz qonaqpərvərliyə görə şəxsən öz adımdan və heyətim adından səmimi təşəkkürlərimi xüsusilə ifadə edirəm.

Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir. Bunun son örnəyini Türkiyədə baş verən zəlzələ fəlakəti zamanı gördük. Azərbaycan hökuməti və xalqı dərdimizi öz dərdi kimi bölüşdü və dərhal zəlzələ bölgəsinə heyət göndərdilər. Ürəyi bizimlə döyünən hər bir Azərbaycan vətəndaşına yenə şəxsən öz adımdan və millətim adından minnətdaram.

Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəltdiyimiz əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq. Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. Hakan bəy, bu məsələdə də heç gecikdirmədən, inşallah, Şuşadakı baş konsulluğumuz hər an açıla bilərsə, bu təbii ki, yenə başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaqdır.

Maarif Vəqfimiz Azərbaycan qurumlarının dəstəyi ilə təhsil-tədris sahəsində fəaliyyətini davam etdirir. İnşallah, gələn il məktəbimizin yeni təhsil korpusunu istifadəyə verməyi planlaşdırırıq.

Əziz qardaşımla təkbətək görüşümüzdə xüsusilə Xəzərdən keçən Orta Dəhliz və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu xəttini də bir an əvvəl müzakirə etməyimizdə fayda var.

## Prezidentlərin bəyanatları



### Prezident İlham Əliyevin bəyanatı

*Əvvəli 1-ci səh.*

- Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə əziz Qardaşım, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana, Vətəninizə xoş gəlmisiniz.

Sizi Cümhurbaşqanı seçkilərində qazandığınız qələbə münasibətilə bir daha təbrik etmək istəyirəm. Şadam ki, bu qələbədən iki həftə sonra Siz Azərbaycana dövlət səfərinə gəlmisiniz.

Seçkilərdə Sizin qələbəniz 20 ildən çox müddət ərzində apardığınız siyasətin Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür. Sizin liderliyinizlə qardaş Türkiyə böyük və şərəfli yol keçmişdir, dünya çapında böyük güc mərkəzinə çevrilmişdir. İstər xarici siyasət sahəsində, istər daxili siyasət sahəsində fəaliyyətiniz Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilir. Sizin qələbəniz Azərbaycan xalqını da çox mutlu etmişdir.

Əminəm ki, bu seçkilərdən sonra Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri qarşısında yeni imkanlar, yeni üfüqlər açılır. Bu gün biz Sizinlə həm görülmüş işlərə yekun vurduq, eyni zamanda növbəti illərdə görüləcək işlər haqqında geniş fikir mübadiləsi apardıq. Həm təkbətək görüş zamanı, həm də heyətlərin iştirakı ilə apardığımız danışıqlar bir daha bizim ortaq niyyətimizi ifadə edir. Yəni əldə edilmiş bütün uğurların təməlində Türkiyə və Azərbaycan arasında olan qardaşlıq əlaqələri dayanır.

İki gündən sonra biz Şuşa Bəyannaməsinin ikinci ildönümünü qeyd edəcəyik. Şuşa Bəyannaməsi tarixi anlaşmadır. Bu anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Əslində, faktiki olaraq, biz uzun illər müttəfiqlər kimi fəaliyyət göstərirdik, ancaq Şuşa Bəyannaməsi bunu rəsmi sənədə çevirdi. Bu sənədin Şuşada imzalanması, təbii ki, rəmzi xarakter daşıyır. Çünki Şuşa Qarabağın tacıdır və Şuşanın işğaldan azad olunması İkinci Qarabağ müharibəsinə son nöqtəni qoymuşdur. Fürsətdən istifadə edərək Azərbaycan xalqı adından Sizə və qardaş Türkiyəyə İkinci Qarabağ savaşı dönəmində bizə göstərdiyiniz qardaşlıq dəstəyinə, mənəvi və siyasi dəstəyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Təbii ki, bizim gələcək işbirliyi proqramımız bu gün müzakirə olunan məsələlər arasındadır. Bütün sahələrdə konkret proqramlar əsasında işlər gedir. İlk növbədə Türkiyə və Azərbaycan bundan sonra da xarici siyasət sahəsində vahid mövqedən çıxış edəcəklər. Bizim xarici siyasətlə əlaqədar apardığımız birgə fəaliyyət bölgə üçün də çox böyük önəm daşıyır. O cümlədən bölgənin inkişafı, sabitliyi və təhlükəsizliyi nöqteyi-nəzərindən Türkiyə-Azərbaycan birliyi amili çox önəmlidir.

Bu gün eyni zamanda müdafiə və müdafiə sənayesi sahələrində gələcək planlar haqqında danışdıq. Məmnuniyyətlə qeyd olundu ki, bu il 16 birgə hərbi təlim keçiriləcəkdir, onlardan 6-sı artıq keçirilmişdir.

*Ardı 3-cü səh.*

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri

# qardaşlıq, dostluq, müttəfiqlik

# Prezidentlərin bəyanatları



## Prezident İlham Əliyevin bəyanatı

*Əvvəli 2-ci səh.*

Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz bunu indi əyani şəkildə görürük. Bu dəstəyə görə də Sizə özəlliklə təşəkkürümü bildirmək istəyirəm.

Bugünkü dünyada güc amili ön plana çıxır. Əfsuslar olsun ki, beynəlxalq hüquq çalışmır. Biz bunu 30 illik işğal dönəmində görmüşdük və aparılan müzakirələr, danışıqlar heç bir nəticəyə gətirib çıxarmadı, nəticəyə gətirib çıxaran bizim gücümüz oldu. Ona görə bundan sonra da birgə fəaliyyət istiqamətində aparılacaq işlər bizim gücümüzü həm bölgədə, həm dünyada daha da artıracaq.

Məmnunluq hissi ilə qeyd etdik ki, ticarət dövriyyəsi sürətlə artır və artıq 6 milyard dollara yaxınlaşıbdır və gələcəkdə daha da artacaq. Çünki birgə həyata keçirəcəyimiz layihələr bunu təmin edəcək, xüsusilə enerji sahəsində. Azərbaycandan Türkiyəyə təbii qazın ixracı artmaqdadır, ildən-ilə artır və bu gün biz razılığa gəldik ki, bundan sonra da artacaq. Bununla paralel olaraq, Türkiyə ərazisindən Avropa ölkələrinə Azərbaycanın qaz ixracı artmaqdadır, buna da böyük tələbat var. Enerji sahəsində bizim işimiz təbii qaz məsələsi ilə məhdudlaşmır. Biz bu gün yenilənən, yəni bərpaolunan enerji növləri üzrə əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Biz bu gün həm qaz, həm neft, həm neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi sahələrində fəal əməkdaşlıq edirik.

Təbii ki, hər dəfə görüşəndə biz nəqliyyat məsələlərini də geniş müzakirə edirik. İndiki geosiyasi şəraitdə Orta dəhlizin önəmi daha da artır. Azərbaycan ərazisindən, yəni Xəzər dənizi ilə daşınan yüklərin həcmi ildən-ilə artmaqdadır və daha da artacaq. Ona görə biz Azərbaycanda nəqliyyat və logistika imkanlarımızı genişləndiririk. Bakı Dəniz Limanının imkanlarını 25 milyon tona genişləndiririk. Dəmir yolu, gəmiqayırma zavodu və digər nəqliyyat infrastrukturu ən müasir səviyyəyə gətirilir.

Biz eyni zamanda Zəngəzur dəhlizinin tezliklə açılması haqqında fikir mübadiləsi apardıq, bu məsələni müzakirə etdik. Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək.

Müzakirə olunan məsələlərdən biri də təhsil sahəsi ilə bağlıdır. Türkiyə-Azərbaycan birgə universitetinin yaradılması istiqamətində danışıqlar indi son mərhələdədir. Biz çox ümid edirik ki, yaxın aylarda bu məsələ də öz həllini tapacaq və bizim qardaşlıq münasibətlərimizə daha bir töhfə veriləcəkdir.

Bir sözlə, qeyd etdiyim bütün bu və digər məsələlərlə, - çünki gündəliyimiz kifayət qədər genişdir, - bağlı fikir birliyi, vəhdət, mövqe birliyi var, belə də olmalıdır. Türkiyə-Azərbaycan birliyi xalqlarımız üçün, bölgə üçün, türk dünyası üçün önəmlidir. Əminəm ki, gələcək illərdə bu birlik daha da güclənəcək və bizi yeni uğurlar, yeni qələbələr gözləyir.

Əziz qardaşım, gəldiyinizə görə bir daha təşəkkür edirəm. Vətəninizə xoş gəlmisiniz!

❖ ❖ ❖

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.



## Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

- Hörmətli cənab Prezident, əziz Qardaşım.

Əvvəlcə, hörmətli mətbuat nümayəndələrinə bir daha bildirirəm ki, Prezident üsul-idarəsinin ikinci dönəmində 86 faizlik iştirak səviyyəsi ilə keçirilən budəfəki seçki dünyada müstəsna deyə biləcəyimiz bir seçki olmuşdur. Bu seçkidən də millətimin iradəsi ilə qalib çıxmaq, yenidən ilk səfərimizi Şimali Kiprə və həmin gün Bakıya gələrək burada gerçəkləşdirmək bizi son dərəcə məmnun etmişdir. Biz öz evimizdəyik və indi burada mətbuata bəyanatla çıxış edirik.

İlham qardaşım, nazirlərin bu gün qarşılıqlı keçirdiyi iclasları olduqca gözəl bir şəkildə ümumiləşdirdi. Bununla yanaşı, hansı sahələrdə nələr etdik, nələri edirik, təkbətək görüşdə də bunları ətraflı müzakirə etdik. Prezident Əliyev bunları da ümumiləşdirdi və heyətlər arasındakı görüş barədə də ətraflı məlumat verdi.

Türkiyə və Azərbaycan iki qardaş ölkədir. "Bir millət, iki dövlət" düşüncəsi ilə bu günə qədər addımladıq. İndiyə qədər addımladığımız bu yolda bundan sonra da qərarlı şəkildə yolumuza davam edəcəyik. Burada bir məsələni də bildirmək istəyirəm. Xüsusilə səlahiyyətlərimin icrasına başlama mərasimində İlham qardaşımın xanımı ilə birlikdə iştirakı dünyaya və Türkiyəyə bir mesajdır. Buna görə mən də eyni qaydada xanımımla birlikdə bu səfərə gəlmişəm. Bu səfərlər aramızdakı münasibətlərin nə qədər inkişaf etməsinin ən gözəl ifadəsidir. Bunları təkcə bu gün etdik? Xeyr. Biz bunları daim - Baş nazir olduğumdan bəri, Prezidentliyi təhvil aldığımdan bəri yaşadıq, yaşayırıq və Rəbbim ömür verdikcə də yaşamaqda davam edəcəyik.

Əziz qardaşım İlham Əliyevə və azərbaycanlı qardaşlarımıza göstərdikləri bu qonaqpərvərliyə görə də şəxsən öz adımdan və heyətim adından çox təşəkkür edirəm. Hazırda atdığımız və atacağımız addımlardan biri də Türkiyə-Azərbaycan Universiteti məsələsidir. Bu məsələ ilə əlaqədar Ali Təhsil İdarəsinin sədri öz həmkarı ilə bu məsələni bu gün nəzərdən keçiriblər. Qanuni prosedurun vacibliyini isə İlham qardaşım ifadə etdi. Bu məsələni də tez bir zamanda həyata keçirərək, İnşallah, Türkiyə ilə Azərbaycan arasında belə bir universitetin qurulmasına nail olacağıq. Beləliklə, azərbaycanlı gənclərimiz Türkiyəyə rahatlıqla gələ biləcəkləri kimi, türk gəncləri də eyni qaydada Azərbaycandakı universitetdə oxumaq şansı əldə edəcəklər.

Bununla yanaşı, ən vacib məsələlərdən biri də məlum olduğu kimi, enerjidir. Enerji sahəsində istər TANAP, istərsə də TAP ilə bağlı illərdən bəri görülən işlər var. Bu işlərin təfərrüatlarını da nazirlərimiz öz aralarında müzakirə etdilər. Həmçinin bununla bağlı bundan sonrakı dövrdə görəcəyimiz işlər müzakirə olundu. Avropa enerji sahəsində, xüsusilə Türkiyə vasitəsilə alacağı qaz məsələsində çox narahatdır. Buna görə davamlı xahişlər edirlər. Bu məsələ ilə əlaqədar biz üzərimizə düşən işi görürük və bundan sonra da həyata keçirməkdə davam edəcəyik.

Bütün bunlarla yanaşı, müdafiə sənayesi sahəsində atılacaq addımlar da böyük əhəmiyyət kəsb edir. Bu sahədə atacağımız addımlarla birlikdə bu işin müdafiə sənayesi hissəsi ilə yanaşı, təhsil məsələsində də üzərimizə düşən vəzifələr var. Bu vəzifələri bu günə qədər necə yerinə yetirmişiksə, bundan sonra da eyni qaydada həyata keçirməkdə davam edəcəyik.

Ən mühüm məsələlərdən biri də xüsusilə hazırda özəl sektorumuzun burada atdığı addımlardır. Şirkətlərimiz kənd təsərrüfatı, heyvandarlıq sahələrində müştərək fəaliyyəti uğurla həyata keçirirlər. Bununla yanaşı, nəqliyyat sahəsində türk podratçı firmaları həqiqətən də Azərbaycanda uğurlu infrastruktur layihələrini həyata keçirirlər. Bu, bizi xüsusilə məmnun edir.

Şuşa Bəyannaməsinin müddəalarını da, İnşallah, bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlıyıq və bu məsələdə güzəştə getməyəcəyik.

Üzərində ən çox çalışdığımız və həssaslıq göstərdiyimiz Zəngəzur dəhlizi məsələsini, İnşallah, sürətlə həll etməyimiz bizə iki mühüm imkanı qazandıracaq. İstər avtomobil yolu, istərsə dəmir yolu ilə bağlı atılacaq addımlar sayəsində buradan İğdıra, Naxçıvana yolun açılması ilə Türkiyənin Naxçıvanla əlaqəsi daha güclü olacaq. Bu əlaqələrin yaradılması Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da güclənməsinə imkan verəcək. Çünki yol mədəniyyətdir. Əgər yolunuz varsa, mədənisiniz. Yolunuz varsa, mədəniyyətə çatmısınız. Əgər yol yoxdursa, heç bir şey yoxdur. Hazırda Azərbaycanın, xüsusilə müharibələrdən sonra infrastrukturla bağlı böyük həssaslıq göstərdiyi ən əhəmiyyətli məsələ yollardır. Bundan əvvəlki səfərimdə də gördüm, bütün tunellər, viaduklar Azərbaycanın Qarabağ müharibələrindən - istər Birinci, istərsə İkinci Qarabağ müharibəsindən sonra necə inkişaf etdiyini ən gözəl şəkildə ortaya qoyur. Biz bunları bilavasitə gördükcə iftixar hissi keçiririk. İyirmi il əvvəlki Bakını düşünürəm və hazırda da Qarabağı düşünürəm. Otuz il ərzində Minsk qrupu vaxt uzatdı və bunun nəticəsini yaşayırıq. Vaxtı çox uzatdılar, addım atmağa imkan vermədilər. Bax, öz göbəyinizi özünüz kəssəniz, addım atarsınız. Sağ olsun, İlham qardaşım bunu bacardı. Millət olaraq bunu bacardınız və indi də bu səviyyəyə gəldiniz. Deməli, məsələ odur ki, qətiyyətli olduğun zaman, inandığın zaman istədiyinə nail olmaq mümkündür. Azərbaycan da bu nəticəyə nail oldu.

Əlbəttə, indi qarşımızda atılacaq bəzi addımlar var. İnşallah, bu addımları da uğurla atdıqca Azərbaycan mövcud əhalisi ilə təbii ki, daha da irəli gedəcək. Mənim əhali ilə bağlı planımı, proqramımı bilirsiniz, ən azı üç deyirdim. Amma Azərbaycanda bu, ən azı beş olmalıdır. Elədirmi, qardaşım?

Prezident **İlham ƏLİYEV:** Çalışacağıq.

Prezident **Rəcəb Tayyib ƏRDOĞAN:** Ən azı beş olmalıdır. Hazırda əhali 12 milyondur?

Prezident **İlham ƏLİYEV:** Hələ 11 milyona çatmayıb, 10 milyonun üstündədir, amma, İnşallah, yaxın zamanda çatacaq.

Prezident **Rəcəb Tayyib ƏRDOĞAN:** Çatacaq, İnşallah. Yəni bunu bacarmaq lazımdır. Buna nail olanda Azərbaycan daha güclü olacaq. Çünki əhali hər bir ölkənin gücüdür, həmin ölkənin gələcəklə bağlı paradiqmalarını dəyişdirir. Bu inamla, Türkiyə-Azərbaycan qardaşlığı və "Bir millət, iki dövlət" anlayışı ilə gələcəyə doğru addımlayacağıq. Aramızdakı Preferensial Ticarət Sazişindən tutmuş digər sahələrdə atacağımız addımlarla, İnşallah, Türkiyə-Azərbaycan qardaşlığını daha yüksək səviyyəyə çatdıracağıq. Çox təşəkkür edirəm.

# Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirak ediblər.





## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri

# Tarixdə bənzəri olmayan qardaşlıq, dostluq, müttəfiqlik

## Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoyulub.

## Şəhidlərin xatirəsi ehtiramla yad edilib





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğan "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Sonra Türkiyə Prezidenti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoydu, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzdü.

Ali qonaq Xatirə kitabına ürək sözlərini yazdı.






## Azərbaycanın və Türkiyənin birinci xanımları İçərişəhərdə olublar







*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, qonaqlar gəzintiyə dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Qız qalası ilə tanışlıqdan başlayıblar. Türkiyə Respublikasının birinci xanımına bu qədim abidənin tarixi barədə ətraflı məlumat verilib.

Daha sonra qonaqlar UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan təmir-bərpa və abadlıq işləri barədə məlumatlandırılıblar.

İçərişəhərdə qədim tarixi-mədəni abidələrdən biri olan "Hacı Bani" hamamı və İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi ilə tanışlıq qonaqlarda xoş təəssürat doğurub.

Sonda qonaqlara xatirə hədiyyələri təqdim edilib.

## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanışlıq





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qonaqlara mərkəz haqqında məlumat verib.

Bildirilib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəzin əsas məqsədi həssas əhali qruplarından olan şəxslər, o cümlədən şəhid ailəsi üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələr və əlilliyi olan şəxslər sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etmək, onlara sosial-psixoloji dəstək göstərməkdir. Təxminən ilyarım əvvəl yaradılan mərkəzdə hazırda 14 istiqamət üzrə 180-dən çox benefisiarın təlim aldığı diqqətə çatdırılıb.





Qonaqlar mərkəzdəki audio-səsyazma, floristika və landşaft dizaynı, metal və ağac üzərində oyma, xalçaçılıq, toxuma və tikmə, keramika, musiqi, təsviri sənət studiyalarında keçirilən təlimlərlə, o cümlədən kitabxana ilə tanış olublar.

Azərbaycan və Türkiyənin birinci xanımları mərkəzin təlimçiləri və təlim alanlarının, inklüziv kamera orkestrinin ifasında musiqi nömrələrini dinləyib, benefisiarların əl işlərindən ibarət sərgi ilə tanış olub, onlarla şəkil çəkdiriblər.

Sonda qonaqlara hədiyyələr təqdim olunub.

# Türkiyə Prezidentinin Azərbaycana dövlət səfəri başa çatıb





**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına dövlət səfəri iyunun 13-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğanı dövlət başçısı İlham Əliyev yola saldı.

# İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya

Hörmətli cənab Prezident!

İtaliya Respublikası Nazirlər Şurasının keçmiş Sədri, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Silvio Berluskoninin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Silvio Berluskoninin Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və genişlənməsində böyük töhfəsi var idi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün İtaliya xalqına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

İcazə verin, Vyetnam dövləti və xalqı adından Sizə və bütün Azərbaycan xalqına milli bayramınız - Müstəqillik Gününün 105-ci ildönümü münasibətilə ən səmimi təbriklərimi çatdırım.

Vyetnam Azərbaycanda həyat səviyyəsinin yüksəldilməsi, ölkənin inkişafı və beynəlxalq mövqeyinin möhkəmlənməsi istiqamətində xalqınızın əldə etdiyi nailiyyətləri həmişə maraqla izləyir və onlarla fəxr edir.

Vyetnam ilə Azərbaycanın regionda və beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə kömək edən ənənəvi dostluğun, çoxtərəfli əməkdaşlığın müsbət inkişafına çox şadam.

Əminəm ki, Vyetnamla Azərbaycan bu əsasda ölkələrimizin və xalqlarımızın tərəqqisi, rifahı, bütün dünyada sülh və inkişaf naminə gələcəkdə də müxtəlif sahələrdə əməkdaşlığı genişləndirəcəkdir.

Azərbaycan Respublikasına tərəqqi, xalqınıza isə xoşbəxtlik və əmin-amanlıq diləyirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, səadət və ali fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Vo Van TXIONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

# Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyənin birinci xanımı Əminə Ərdoğan ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə bağlı paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, Əminə Ərdoğan ilə birgə fotosunu paylaşan Mehriban xanım Əliyeva qeyd edib: "Əziz bacım Əminə Ərdoğanı Bakıda görməyimə şadam! Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır. Bizim birliyimiz, bizim gücümüz məhz bundadır! Uca Tanrı xalqlarımızı qorusun!".




# Ceyhun Bayramov Hakan Fidanla birlikdə QDİƏT XİN Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanla birlikdə iyunun 13-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının videokonfrans formatında keçirilən 46-cı iclasında iştirak edib.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, QDİƏT-in fəaliyyətdə olan sədri, Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvica Daçiçin sədrliyi ilə keçirilən iclasda çıxış edən nazir Ceyhun Bayramov tədbir iştirakçılarına Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işləri, Azərbaycan tərəfindən regionda sülhün təmin edilməsi istiqamətində səyləri barədə ətraflı məlumat verib.

Nazir işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılmasının, ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğunu beynəlxalq nəqliyyat-kommunikasiya bağlantılarının, habelə Zəngəzur dəhlizinin yaradılmasının müsbət təsirlərini diqqətə çatdırıb. Avropaya qaz ixracı və bu istiqamətdə imzalanan sazişlərin əhəmiyyəti vurğulanıb.

Azərbaycanın QDİƏT-in Mədəniyyət, Turizm, İKT, İnstitusional İslahatlar və Yaxşı İdarəçilik, eləcə də Kiçik və Orta Müəssisələr üzrə İşçi Qruplarında əlaqələndirici-ölkə rolunu həyata keçirdiyi qeyd edilib.

Ölkəmizin eyni zamanda 2023-cü ilin iyulun 1-dən etibarən 2 il müddətinə QDİƏT-in Enerji üzrə İşçi Qrupunda ölkə-əlaqələndiriciliyi funksiyasını da öz üzərinə götürdüyü bildirilib.

İclasın sonunda yekun protokol və bir sıra vacib qərarlar qəbul olunub, sədrlik Serbiyadan Türkiyə Respublikasına təhvil verilib.

# Türkiyə Prezidentinin Bakıya səfəri Gürcüstan mətbuatının diqqət mərkəzində olub

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, dövlət başçılarının mətbuata açıqlamaları Gürcüstan KİV-nin diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, interpressnews.ge, kavkasia.net, 24news.ge, gaxa.ge, aktual.ge, 1tv.ge, qafqazturk.com informasiya portalları, 1tv.ge televiziyasında səfərlə bağlı silsilə materiallar dərc olunub.




Azərbaycan, gürcü və rus dillərində yayılan məlumatlar dövlət başçılarının qarşıda duran vəzifələr və əldə olunacaq uğurlar, xüsusən də Azərbaycan qazının nəqli, Zəngəzur dəhlizi, Şuşada Türkiyə Respublikasının konsulluğunun açılacağı barədə fikirlər geniş yer alıb.

# İqtisadiyyat naziri Türkiyə Respublikasının ticarət naziri ilə görüşüb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Türkiyənin ticarət naziri Ömer Bolatla görüşüb. Mikayıl Cabbarov türkiyəli həmkarı Ömer Bolatı Türkiyə Respublikasının ticarət naziri vəzifəsinə təyin edilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə dövlət başçılarının siyasi iradəsinin, verdikləri tapşırıqların icrasının əlaqələrin inkişafında əhəmiyyəti vurğulanıb. Qeyd edilib ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında imzalanan Protokol iqtisadi-ticarət əməkdaşlığımızın gücləndirilməsinə əlavə stimul yaradır. Qardaş ölkələr arasında uğurlu investisiya tərəfdaşlığı həyata keçirilir, qeyri-neft ticarət dövriyyəsi artır. Vurğulanıb ki, Azərbaycan və Türkiyənin iştirakı ilə həyata keçirilən genişmiqyaslı layihələr regional əməkdaşlığı dərinləşdirməklə yanaşı, bölgənin mənzərəsini dəyişir.

Nazir həmçinin Azərbaycan iqtisadiyyatı barədə məlumat verib, qardaş Türkiyə ilə əlaqələrin daha da genişləndirilməsi barədə fikirlərini bölüşüb.

Türkiyənin ticarət naziri Ömer Bolat səmimi təbrikə görə təşəkkürünü bildirib, ortaq dəyərlərə malik olan ölkələrimizin dostluq və qardaşlıq münasibətlərini, strateji müttəfiqliyini vurğulayıb.

Tərəflər birgə reallaşdırılan layihələr, işğaldan azad edilmiş ərazilərimizdə türk şirkətlərinin fəaliyyəti və ticarət tərəfdaşlığının perspektivləri barədə müzakirələr aparıblar.

# Səmimi qardaşlıq, sarsılmaz birlik

**"Əldə edilmiş bütün uğurların təməlində Türkiyə və Azərbaycan arasında olan qardaşlıq əlaqələri dayanır".**

Prezident İlham Əliyevin ölkəmizdə dövlət səfərində olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında vurğuladığı kimi, ortaq tarixi dəyərlərimizlə sıx bağlı olduğumuz Türkiyə ilə birliyimizin təməl gücü qardaşlıq əlaqələrinə dayanır.

Məhz İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında olan səmimi dostluq, qardaşlıq münasibətləri Azərbaycan-Türkiyə arasında əzəldən var olan əlaqələri daha da möhkəmləndirib, sarsılmaz və əbədi edib.

Həm İlham Əliyevin, həm də Rəcəb Tayyib Ərdoğanın Prezident seçildikdən sonra ilk xarici səfərlərini Türkiyəyə və Azərbaycana etmələri isə artıq xoş bir ənənə halı alıb və bu, ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinə ən bariz nümunələrdəndir.

Elə növbəti dəfə Türkiyə Prezidenti seçilən Rəcəb Tayyib Ərdoğanın ilk xarici səfərini ölkəmizə etməsi və Azərbaycan xalqının ən ali, əziz qonağı olması da bu möhtəşəm ənənənin daha bir tarixi təzahürüdür.

## Amalımız da, yolumuz da, uğurlarımız da birdir

İki qardaş ölkənin liderləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın yürütdükləri uğurlu strategiyanın, qətiyyətli siyasətinin nəticəsidir ki, bu gün dünyanın istənilən siyasi gücü Azərbaycan-Türkiyə birliyi ilə hesablaşır, regionla bağlı bütün məsələləri məhz bu iki ölkənin maraqlarına uyğun tənzimləyir.

Ölkələrimiz bütün beynəlxalq platformalarda, dövlətlərimizlə bağlı istənilən məsələlərdə hər zaman birlik nümayiş etdirirlər, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizmə, işğal siyasətinə qarşı birgə mübarizə aparır, bütün təbii fəlakətlər, onların nəticələrinin aradan qaldırılması istiqamətində də bir-birilərinə kömək edirlər.

"Türkiyə və Azərbaycan xarici siyasət sahəsində bundan sonra da vahid mövqedən çıxış edəcək. Bizim xarici siyasətlə əlaqədar apardığımız birgə fəaliyyət bölgə üçün də çox böyük önəm daşıyır", - deyən Prezident İlham Əliyev bölgənin inkişafı, sabitliyi və güvənliyi nöqteyi-nəzərindən Türkiyə-Azərbaycan birliyi faktorunun çox önəmli olduğunu qeyd etdi.

Həmin gün Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla keçirilən geniş tərkibdə görüşdə də qeyd etdi ki, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı - bu, beynəlxalq faktordur, sabitlik, inkişaf və təhlükəsizlik faktorudur.

Azərbaycan-Türkiyə birliyinin sarsılmaz gücünü 44 günlük Vətən müharibəsində bütün dünya əyani şəkildə görmüş oldu. Vətən uğrunda çıxdığımız Zəfər yürüşündə Türkiyənin siyasi, mənəvi dəstəyini hiss etdik və bu qardaş dəstəyi bizə əlavə güc, qürur bəxş etdi.

Vətən müharibəsində Azərbaycan öz hərbi gücü ilə cəmi 44 günə tarixi torpaqlarının 30 illik işğalına son qoydu. Həmin zaman qardaş Türkiyənin siyasi və mənəvi dəstəyi ilə yanımızda olması isə haqq işimizin əldə olunmasına maneçilik törətmək istəyən kənar məkrli qüvvələrin müdaxiləsinə yol vermədi.

## Şuşada baş konsulluq açılsa...

Yeni türk tarixinin ən parlaq zəfəri olan Şuşa zəfəri türk birliyinin daha da güclənməsi üçün yeni yollar açıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsi zamanı qazandığı parlaq zəfər sayəsində tarixən var olan türk birliyinin etnosiyasi coğrafiyası da bərpa edilib.

Buna görə də tarixi zəfər yalnız Azərbaycanın deyil, eləcə də Türkiyə və bütün türk dünyasının tarixi Qələbəsi kimi qiymətləndirilir.

O da təsadüfi deyil ki, Vətən müharibəsində qazandığı zəfərə və türk dünyasının birgəliyinə verdiyi bu töhfəsinə görə Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeninə layiq görülüb.

2021-ci ilin 15 iyununda - Azərbaycan Prezidenti Türkiyə Prezidentini Qarabağda qarşıladı və mədəniyyət paytaxtımızda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalandı. Azərbaycanın qurtuluş günündə, tarixi Qars müqaviləsindən yüz il sonra iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanması ilə əzəldən var olan münasibətlərimiz daha yüksək zirvələrə daşındı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Prezident İlham Əliyev ilə keçirilən geniş tərkibdə görüşdə bildirdi ki, iki ölkənin Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəldilən əlaqələrini bütün sahələrdə inkişaf etdirməkdə qərarlıdırlar: "Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. İnşallah, Şuşadakı baş konsulluğumuz açılsa, bu, təbii ki, başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaq".

## "Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir"

Azərbaycan xoş gündə olduğu kimi, dar günündə də hər zaman Türkiyənin yanında olur. Cari il fevralın 6-da baş verən dəhşətli zəlzələ zamanı Türkiyəyə ilk beynəlxalq yardımı Azərbaycan göstərdi.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə martın 16-da zəlzələ ilə əlaqədar Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşü baş tutdu.

Azərbaycanın zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində 1000 ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksi inşa edir.

Rəcəb Tayyib Ərdoğan da vurğuladı ki, Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir: "Bunun son örnəyini Türkiyədə baş verən zəlzələ fəlakəti zamanı gördük. Azərbaycan hökuməti və xalqı dərdimizi öz dərdi kimi bölüşdü və dərhal zəlzələ bölgəsinə heyət göndərdilər".

Gətirdiyimiz bu qısa nümunələrin özü də Azərbaycan-Türkiyə həmrəyliyinə bariz örnəkdir.

Vurğulayaq ki, bu il mayın 28-də Türkiyədə Prezident seçkilərində qalib gələn Rəcəb Tayyib Ərdoğanı qalibiyyət münasibətilə ilk təbrik edən beynəlxalq lider də məhz Azərbaycan Prezidenti İlham Əliyev olub.

İyunun 3-də Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlama mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak etdilər. Andiçmə mərasimində Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə xüsusi ehtiram göstərməsi isə həmin mərasimin ən diqqətçəkən məqamları kimi yaddaşlara həkk olundu.

## Yeni imkanlar, yeni üfüqlər

Azərbaycan və Türkiyə liderləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın şəxsi əzmləri və səyləri nəticəsində ölkələrimiz arasında ikitərəfli əlaqələr tarixindəki ən yüksək pilləyə qalxıb.

Bu əlaqələrin möhtəşəm inkişafının məntiqi nəticəsidir ki, növbəti dəfə Türkiyə Prezidenti seçildikdən sonra Rəcəb Tayyib Ərdoğan ilk dövlət səfərini Azərbaycana etdi.

Heç şübhəsiz Rəcəb Tayyib Ərdoğanın yenidən Türkiyədə Prezident seçilməsi və ilk olaraq dövlət səfərini Azərbaycana etməsi dövlətlərimiz, xalqlarımız arasındakı tarixi əlaqələrin inkişafında yeni və daha parlaq səhifə açacaq.

Necə ki bu barədə Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında dedi: "Əminəm ki, bu seçkilərdən sonra Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri qarşısında yeni imkanlar, yeni üfüqlər açılır".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 190 **QƏRAR** Bakı şəhəri, 12 iyun 2023-cü il

## "Azərbaycan Respublikası Energetika Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 8 oktyabr tarixli 325 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Energetika Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-c? il 8 oktyabr tarixli 325 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1296; 2017, № 11, maddə 2139; 2018, № 2, maddə 353; 2021, № 7, maddə 870; 2022, № 3, maddə 270) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "10" rəqəmləri "11" rəqəmləri ilə əvəz edilsin.

2. "Kollegiyanın üzvləri:" bölməsi üzrə:

2.1. beşinci abzasda "elektroenergetika və enerji səmərəliliyi" sözləri "elektrik və istilik enerjisi" sözləri ilə əvəz edilsin;

2.2. altıncı, yeddinci abzaslar müvafiq olaraq yeddinci, səkkizinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Energetika Nazirliyi Aparatının enerji səmərəliliyi şöbəsinin müdiri;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 191 **QƏRAR** Bakı şəhəri, 12 iyun 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 dekabr tarixli 212 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 771-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 dekabr tarixli 212 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1257; 2014, № 4, maddə 444, № 6, maddə 747; 2016, № 10, maddə 1717; 2018, № 9, maddə 1930; 2019, № 1, maddə 163; 2022, № 4, maddələr 386, 414) ilə təsdiq edilmiş "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bəndə "Qayda" sözündən sonra "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq" sözləri əlavə edilsin.

2. 1.2.4-cü yarımbənddə "təsis edilmiş" sözləri "yaradılmış" sözü ilə əvəz edilsin.

3. 3.2.1-ci yarımbənddə ", təkrar İMEİ nömrələri olmayan" sözləri "və ya surəti köçürülməyən" sözləri ilə əvəz edilsin.

4. 3.2.2-ci yarımbənd üzrə:

4.1. birinci cümlədə "təkrar" sözü "dəyişdirilmiş və ya surəti köçürülmüş" sözləri ilə əvəz edilsin;

4.2. ikinci cümlə aşağıdakı redaksiya verilsin:

"Mobil operator tərəfindən İMEİ nömrələri mobil cihazların qeydiyyat sisteminin qara səhifəsində olan mobil cihazlara (İMEİ nömrələri uyğunlaşdırılmış ağ səhifədə olan mobil cihazlar istisna olmaqla) telekommunikasiya xidmətlərinin göstərilməsi qadağandır.".

5. 3.3.1-ci yarımbəndə "dəyişdirildiyi" sözündən sonra "və ya surətinin köçürüldüyü" sözləri əlavə edilsin.

6. 5.3-cü bəndin birinci cümləsində "və ya onun" sözləri ", habelə onun dəyişdirildiyi və ya" sözləri ilə əvəz edilsin.

7. 5.8-ci və 5.9-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

"5.8. Qeydiyyat mərkəzi mobil cihazın İMEİ nömrəsinin dəyişdirildiyini və ya surətinin köçürüldüyünü müəyyənləşdirmək məqsədilə abunəçinin mobil (sellülar) nömrəsinin MSİSDN-i və İMSİ barədə məlumatları, o cümlədən əməliyyat növü, başlama və bitmə vaxtı, davamiyyəti, olduğu yer, başlanğıc və son stansiyalar, baza stansiyaların identifikasiya parametrləri və yerləşmələri barədə çağrı qeydiyyat məlumatlarını mobil operatorlardan informasiya sistemləri vasitəsilə onlayn qaydada əldə edir.

5.9. İMEİ nömrəsi dəyişdirilmiş, habelə surəti bir və ya bir neçə başqa cihaza köçürülmüş mobil cihazı ilk olaraq istifadə etmiş abunəçinin (onun mobil (sellülar) nömrəsinin) müəyyənləşdirilməsi üçün həmin cihazın İMEİ nömrəsi qara səhifəyə daxil edildiyi tarixdən 3 (üç) ay əvvələdək olan dövr üzrə bu Qaydanın 5.8-ci bəndində qeyd olunan məlumatların təhlili aparılır.".

8. Aşağıdakı məzmunda 6.7-ci bənd əlavə edilsin:

"6.7. Mobil cihazın qeydiyyatının aparılmasından yayınmaq məqsədilə mobil cihazın İMEİ nömrəsinin dəyişdirilməsi və ya surətinin köçürülməsi, habelə İMEİ nömrələri MCQS-nin qara səhifəsində olan mobil cihazlara (İMEİ nömrələri uyğunlaşdırılmış ağ səhifədə olan mobil cihazlar istisna olmaqla) telekommunikasiya xidmətlərinin göstərilməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati məsuliyyətə səbəb olur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan XİN Ermənistanın ölkəmizin əleyhinə bəyanatına cavab verdi

**"Ermənistan Xarici İşlər Nazirliyinin hərbi təxribatlara görə məsuliyyəti riyakarcasına Azərbaycanın üzərinə atması, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə zidd olaraq, suveren ərazimiz olan Qarabağ bölgəsinə beynəlxalq missiya göndərilməsini təşviq etməsi, daxili işlərimizə qarışması, bu ölkənin beynəlxalq öhdəliklərinə heç bir önəm vermədiyini bir daha nümayiş etdirir".**



AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistan XİN-in ölkəmizin əleyhinə bəyanatına dair şərhində əksini tapıb.

Bildirilib ki, həm işğal dövründə, həm də münaqişənin həllindən sonra sülhün bərqərar olunması istiqamətində danışıqlar prosesinə maneçilik törətmək məqsədilə Ermənistanın mütəmadi əsasda Azərbaycana qarşı hərbi-siyasi təxribatlar törətdiyi hər kəsə məlumdur. Məhz bu təxribatçı addımlar nəticəsində 30 ilə yaxın müddətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalına son qoyulması istiqamətində diplomatik səylər uğursuzluğa düçar olub.

"Hazırda Ermənistan tərəfinin postmünaqişə dövründə ərazilərimizdən erməni silahlı qüvvələrini tam olaraq çıxarmayaraq öhdəliyini icra etməməsi Azərbaycanın təhlükəsizliyi üçün əsas təhdid mənbəyidir. Bununla yanaşı, beynəlxalq səviyyədə təsdiq olunmuş bütün danılmaz faktlara baxmayaraq, işğal dövründə olduğu kimi, indi də Azərbaycan ərazisində mövcud olan qüvvələrin Ermənistana məxsusluğunun danılması Ermənistanın faktları necə saxtalaşdırdığının göstəricisidir. Sərhədyanı bölgədə törədilən təxribatlarla yanaşı, ərazimizdə mövcud olan bu birləşmələr Azərbaycanın yenidənqurma işlərinə və məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz geri qayıdışına maneədir və bütün erməni silahlı birləşmələr Azərbaycan ərazisindən dərhal çıxarılmalıdır.

Sülh yaradılması səylərinə maneçilik törədilməsi, saxta və yalançı bəyanatlar verilməsi əvəzinə Ermənistandan Azərbaycanın Qarabağ bölgəsi daxil ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə əməldə riayət etməsi tələb olunur", - deyə Azərbaycan XİN-in şərhində vurğulanıb.

# Kəlbəcər, Şuşa və Naxçıvan istiqamətindəki mövqelərimiz atəşə tutulub

İyunun 13-ü saat 11:10-da Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətində mühəndis işləri görən traktor Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, atəş nəticəsində xəsarət alan olmayıb.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən cavab tədbirləri nəticəsində qarşı tərəfin atəş nöqtələri susdurulub.

* * *

İyunun 13-ü saat 19:15 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Ordumuzun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

İyunun 13-ü saat 17:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini minaatanlar da daxil olmaqla iriçaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülür.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

"Bölgədə vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - məlumatda qeyd edilib.

*AZƏRTAC*

# *Elçin ƏMİRBƏYOV:* "Azərbaycan ilə Şimali Makedoniyanın siyasi dialoq baxımından çox yaxşı münasibətləri var"

**"Azərbaycan ilə Şimali Makedoniya arasında iqtisadi əməkdaşlıq potensialı hələ də istifadə olunmayıb, bizim çoxlu imkanlarımız var. Biz təkcə rəsmi şəxslər deyil, həm də işgüzar dairələr, müxtəlif biznes forumları, sahə nazirliklərinin müxtəlif nümayəndə heyətləri arasında daha çox əlaqələrə malik olmalıyıq".**




AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov Şimali Makedoniyanın "MIA" media informasiya agentliyinə müsahibəsində səsləndirib.

Şimali Makedoniyaya səfəri çərçivəsində jurnalist Aleksandar Atanasovun suallarını cavablandıran Elçin Əmirbəyov səfərin məqsədlərindən, ölkələr arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyətindən və iqtisadi əlaqələrin perspektivlərindən bəhs edib. Bildirilib ki, səfərin iki məqsədi var. İlk növbədə, məqsəd Şimali Makedoniya hakimiyyəti ilə ikitərəfli münasibətləri nəzərdən keçirməkdir. İki ildən sonra Azərbaycan ilə Şimali Makedoniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunacaq.

"Əldə olunan nəticələri və gələcəkdə nələri daha yaxşı edə biləcəyimizi düşünmək üçün yaxşı vaxtdır. İkinci məqsəd isə Şimali Makedoniya hazırda Azərbaycanın da üzv dövlət olduğu ATƏT-in fəaliyyətdə olan sədri rolunu yerinə yetirir. Bunu nəzərə alaraq, məqsədimiz Şimali Makedoniya rəsmilərini Cənubi Qafqazda regional təhlükəsizlik baxımından mövcud vəziyyət, konkret olaraq Azərbaycan və Ermənistan arasında gedən sülh prosesi haqqında məlumatlandırmaqdır", - deyə E.Əmirbəyov qeyd edib.

Birinci vitse-prezidentin köməkçisi deyib ki, iki ölkə arasında siyasi dialoq baxımından çox yaxşı münasibətlər var. Ölkə liderləri və nazirlər müntəzəm olaraq görüşürlər, xüsusən də xarici işlər nazirləri son vaxtlar bir neçə dəfə görüşüblər. Şimali Makedoniyanın xarici işlər naziri bu ilin aprelində Azərbaycana səfər edib. E.Əmirbəyov həmçinin bildirib: "Düzdür o, bu səfəri ATƏT-in fəaliyyətdə olan sədri kimi edib, lakin səfər çərçivəsində həm də azərbaycanlı rəsmilərlə ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Düşünürəm ki, ölkələrimiz iqtisadi əməkdaşlıq potensialından hələ çox yaxşı səviyyədə istifadə etməyib. Bizim yaxşı potensialımız, çoxlu imkanlarımız var. Ona görə də hesab edirəm ki, biz təkcə rəsmi şəxslər səviyyəsində deyil, həm də işgüzar dairələr, müxtəlif biznes forumları, müvafiq nazirliklərin nümayəndə heyətləri arasında daha çox təmaslara malik olmalıyıq".

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasının zəruri olduğu da vurğulanıb.

Elçin Əmirbəyov deyib ki, ənənəvi enerji təchizatçısı kimi tanınan Azərbaycan Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyinə töhfə verir, Aİ-nin əsas strateji tərəfdaşlarından biridir. Şimali Makedoniya Aİ-yə üzv olmaq üçün namizəd ölkə statusu almaq istəyir. Cənub-Şərqi Avropanın bir çox ölkəsi təbii qazın tədarükünü razılaşdırmaq üçün hazırda Azərbaycanla müzakirələr aparır. "Lakin enerji yalnız bir sahədir və düşünürəm ki, biz hər iki ölkənin bir-birinə təklif edə biləcəyi əsas məhsulları ümumiləşdirməliyik. Bizim biznes və ticarət imkanları baxımından müntəzəm ünsiyyət kanalımız olmalıdır. Hesab edirəm ki, qarşıda görüləsi hələ çox iş var. Həmçinin Azərbaycan bu yaxınlarda Şimali Makedoniyaya yeni səfirini akkreditə edib, Serbiyadakı səfirimiz indi Skopyedə də səfirdir. Hesab edirəm ki, ötən müddətdə qurulan əlaqələr bizə mövcud boşluqları doldurmaq imkanı verə bilər".

Azərbaycan rəsmisi 2020-ci ilin sonundan etibarən Xəzər dənizinin təbii qaz ehtiyatlarının "Cənub qaz dəhlizi" vasitəsilə İtaliyaya və bir sıra digər ölkələrə nəql edildiyini bildirərək qeyd edib: "Azərbaycandan təbii qaz alan ölkələrin sayı tezliklə 10-a çatacaq. Şimali Makedoniyanın da Azərbaycan təbii qazının bir hissəsini idxal etməkdə müəyyən marağı var. Həmçinin Azərbaycan Şimali Makedoniya məhsullarının bəziləri üçün də cəlbedici bazar ola bilər və eynilə də bunun əksi mümkündür".

Jurnalistin Azərbaycan təbii qazının Şimali Makedoniyaya mümkün nəqli ilə bağlı sualına cavab olaraq Elçin Əmirbəyov deyib ki, tədarükçü kimi Azərbaycan qazını Şimali Makedoniyaya da çatdırmaqdan məmnun olardıq. Bunun üçün lazımi ötürmə qabiliyyəti və ya paylayıcı şəbəkələr lazımdır. Şimali Makedoniya bu məsələni Avropa İttifaqı ilə müzakirə edə bilər. Çünki Aİ "Cənub qaz dəhlizi"ni çox dəstəkləyir, biz də öz tərəfimizdən Şimali Makedoniyanı alıcı ölkələr siyahısına daxil etməyə açıq və hazırıq. Bundan başqa, Azərbaycan təbii qazının qiyməti rəqabətədavamlı və istehlakçılar üçün daha aşağıdır.

Moldovanın paytaxtı Kişineuda keçirilən "Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı barədə fikirlərini bölüşən Elçin Əmirbəyov qeyd edib ki, bu təşəbbüs Fransa tərəfindən irəli sürülüb və indiyədək iki görüş olub. Yeni təşəbbüs kimi ona müəyyən vaxt lazımdır ki, oturuşsun, insanlar bu platformanın artıq mövcud olan bütün digər təşkilat və platformalarla müqayisədə üzv dövlətlərə hansı müqayisəli üstünlüyü təmin edə biləcəyini həqiqətən başa düşsünlər. Amma şəxsi nöqteyi-nəzərdən deyə bilərəm ki, liderlərin toplantısı yaxşı keçdi, 45-dən çox ölkə təmsil olundu. Müzakirələrin və mübadilələrin qeyri-rəsmi xarakter daşıması müzakirələrin keyfiyyətinə bir qədər də dəyər qatdı. Bu, liderlərin müntəzəm olaraq bir-birini görmələri üçün yaxşı fürsətdir.

Jurnalistin Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin əldə olunması istiqamətində səylərlə bağlı sualına cavabında isə Elçin Əmirbəyov qeyd edib ki, sülh üçün real imkanlar və ya şanslar İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra, Azərbaycan 44 gün ərzində 30 ilə yaxın erməni işğalı altında olan əraziləri azad etdiyi vaxt yaranıb. Beləliklə, Azərbaycan tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etdikdən sonra Ermənistana münaqişədən sonrakı sülh proqramı təklif edib. Ona görə də sülh müqaviləsi layihəsini masaya qoyduq ki, bu da bizə düşmənçilik səhifəsini çevirməyə və münasibətlərimizi normallaşdırmağa kömək edə bilər. Bu müqavilə bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmətə, indi və gələcəkdə bir-birilərinə qarşı hər hansı ərazi iddialarının rədd edilməsinə əsaslanır. Hesab edirik ki, əgər Ermənistan təkcə bəyanatlarla deyil, real əməlləri ilə sülhə hazır olduğunu, Azərbaycana qarşı ərazi iddialarından əl çəkdiyini sübut etsə, yerlərdə bunun həqiqi sübutunu görə bilsək, bizim böyük bu sülhə sahib olmaq şansımız yaranar. İndi hər hansı bir müddət göstərmək çətindir, çünki bəzən onlara əməl edilmədikdə müəyyən məyusluqlar yaranır, lakin biz erməni tərəfinin nə qədər səmimi olduğunu görməliyik. Odur ki, bir tərəfdən Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünə hörmətindən danışır, digər tərəfdən isə Azərbaycanın suveren ərazisində, Qarabağ bölgəsində hələ də 10 min erməni silahlı birləşmələri var. "Dağlıq Qarabağ" anlayışı artıq yoxdur. Bu gün bizim ərazimizin yeni inzibati ərazi bölgüsü - Qarabağın həm dağlıq, həm də aran hissələrini birləşdirən vahid Qarabağ iqtisadi rayonu var. Bu region həm də çoxmillətli olacaq. Çünki Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmış Azərbaycanəsilli minlərlə məcburi köçkün geri qayıtdıqda bir neçə yüz min əhalisi olan bir bölgəmiz olacaq və ümid edirəm ki, ermənilər gələcəkdə oranın bir parçası olacaqlar. "Biz faktiki olaraq yerli ermənilərə təklif edirik ki, Konstitusiyamıza uyğun olaraq onların Azərbaycan dövlətinin sosial, iqtisadi, humanitar və siyasi çərçivəsinə reinteqrasiya şərtlərini razılaşdırmaq üçün Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə müzakirələr və danışıqlar aparsınlar. Yenə də Ermənistanla Azərbaycan arasında bağlanmış sülh müqaviləsinə qayıdaq. Çünki bu, Azərbaycanın daxili məsələsidir və yerli Ermənistan vətəndaşları ilə müzakirələr, sülh danışıqları son vaxtlar intensivləşib. Mayın əvvəlindən biz xarici işlər nazirləri və liderlər səviyyəsində bir neçə raund müzakirələr aparmışıq. Ümid edirik ki, tezliklə müzakirələri davam etdirəcəyik. Sülh müqaviləsi əlçatandır. Biz Ermənistandan məsuliyyətli davranmasını və verdiyi vədlərə əməl etməsini, bütün silahlı qüvvələrini Azərbaycanın suveren ərazisindən çıxarmaq da daxil olmaqla, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsini gözləyirik. Çünki bütün bunlar olmadıqda sülhdən danışa bilmərik. Biz istəyirik ki, bu problem həll olunsun və daha yaxşı şəraitdə sülh danışıqlarına cəmləşək", - deyə Birinci vitse-prezidentin köməkçisi qeyd edib.

Elçin Əmirbəyov vurğulayıb ki, danışıqlar müxtəlif yerlərdə aparılır və müxtəlif vasitəçilər var, Rusiya da onlardan biridir. Çünki atəşkəs sazişini imzalayan tərəflərdən biri rəsmi Moskvadır və onlar da müntəzəm olaraq görüşlərə evsahibliyi edirlər. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Brüsseldə üçtərəfli görüşlər olub. ABŞ də danışıqlar prosesinin iştirakçısıdır. Uzun fasilədən sonra bu danışıqlar prosesini bərpa edən də məhz amerikalılar oldular. Beləliklə, sülh sazişinin mətninin razılaşdırılması üçün ikitərəfli danışıq aparılır. Bu mətn iki xalq arasında münasibətlərin əsas prinsiplərini müəyyənləşdirəcək, həmçinin bağlanmış nəqliyyat əlaqələrini açmağa, indiyədək delimitasiya aparılmayan sərhədi müəyyənləşdirməyə imkan verəcək. Bunlar bizim Ermənistanla danışdığımız üç əsas məsələdir. Bu münaqişə başlayanadək Ermənistan tərəfindən 250 min azərbaycanlı etnik təmizləməyə məruz qalıb və bu ölkədən qovulub. Bu gün biz uzunmüddətli sülhdən, azlıqların hüquqlarından danışarkən, tarixi vətənlərinə qayıtmaq hüququ olan yüz minlərlə azərbaycanlının hüquqları məsələsini də gündəmə gətiririk. Beləliklə, biz Qarabağ bölgəsində ermənilərin hüquqlarını müzakirə edirik və bu, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə yerli ermənilər arasında dialoqdur, ona görə də Ermənistan bu prosesdən kənardadır. Azərbaycan özünün etnik erməniəsilli vətəndaşları ilə əlaqə saxlamağa hazırdır. Lakin biz onlardan konstruktiv olmalarını, sosial, iqtisadi və digər hüquqlarından istifadə etmələri üçün bütün imkanların təmin olunacağını başa düşmələrini gözləyirik. Ancaq bu məsələ Azərbaycan dövlətinin qanunları çərçivəsində, Azərbaycan Konstitusiyasına uyğun olaraq edilməlidir.

# Milli Məclisin növbəti iclası keçirilib





**İyunun 13-də Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbədənkənar sessiyada daha bir iclası keçirilib.**

Əvvəlcə iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Deputatlar Vüqar İskəndərov, Tamam Cəfərova, Elman Nəsirov, Əziz Ələkbərov, Elşad Mirbəşiroğlu, Fəzail Ağamalı, Elşən Musayev, Sədaqət Vəliyeva, Bəhruz Məhərrəmov, Rəşad Mahmudov gündəmdə olan bəzi mövzular barədə öz fikirlərini açıqlayıblar.

Çıxışlarda qarşıdan gələn 15 iyun tarixinin əlamətdar hadisələrə təsadüf etdiyi qeyd olunub. Həmin tarixdə xalqımızın Qurtuluş Gününün 30 illiyini və Şuşa Bəyannaməsinin imzalanmasının 2 illiyini qürur hissi ilə qeyd edəcəyi bildirilib. Deputatlar Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçiliyimizin qorunub möhkəmlənməsində müstəsna rolunu vurğulayıblar. Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin Qurtuluş Günündə imzalanmasının rəmzi məna daşıdığını, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yeni mərhələsinin başlanğıcı olduğunu xüsusi qeyd ediblər. Bildirilib ki, bu gün Azərbaycanla Türkiyə arasında strateji müttəfiqlik münasibətləri yüksək səviyyədə inkişaf edir. Dövlətlərimiz və xalqlarımız arasında möhkəm əlaqələr mövcuddur. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə bu vəzifəyə seçildikdən sonra ilk səfərini Azərbaycana etməsi bunun bariz nümunəsidir.

Müzakirələrdə dünən Milli Məclisdə keçirilmiş "Qərbi Azərbaycan: soyqırıma məruz qalan tarixi-mədəni irsimiz. Qərbi Azərbaycanın tarixi və mədəni irsinin dirçəlişi" mövzusunda ictimai dinləmənin əhəmiyyətindən söhbət açılıb. Bu tədbirin keçirilməsi üçün yaratdığı şəraitə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya Qərbi Azərbaycan İcması adından təşəkkür ünvanlanıb. Qeyd edilib ki, bu tədbir bir daha sübut etdi ki, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası addım-addım həyata keçirilməkdədir.

Millət vəkilləri öz çıxışlarında seçiciləri narahat edən bir sıra məsələləri də nəzərə çatdırıblar.

Sonra spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, bugünkü iclasda 14 məsələ müzakirəyə çıxarılıb. O bildirib ki, gündəliyin ilk 3 məsələsi bu ilin dövlət büdcəsində və büdcə zərfinə daxil olan digər iki sənəddə dəyişiklik edilməsi barədə ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim edilmiş, ikinci oxunuşda olan qanun layihələridir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O bildirib ki, qanun layihəsi 2023-cü ildə əlavə xərclərin qarşılanması üçün maliyyə təminatının yaradılması, cari və ortamüddətli makroiqtisadi və fiskal dayanıqlığa zərər gətirilməməsi, Dövlət Neft Fondunun aktivlərinin münbit qiymət konyunkturası şəraitində artımının davam etdirilməsi hədəfləri gözlənilməklə tərtib olunub.

Komitə sədri nəzərə çatdırıb ki, sənəddə 2023-cü ildə dövlət büdcə gəlirlərinin 3 milyard 5,5 milyon manat artırılaraq 33 milyard 779,5 milyon manata, xərclərinin isə 3 milyard 215,5 milyon manat artırılaraq 36 milyard 568,5 milyon manata, kəsirin isə 210 milyon manat genişləndirilərək 2 milyard 789,3 milyon manata çatdırılması təklif olunub. 2023-cü il üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbətinin 25,4 faiz olması proqnozlaşdırılıb.

O, artırılan gəlirlərin 52 faizinin qeyri-neft, 48 faizinin isə neft gəlirləri hesabına formalaşacağını qeyd edib. Bildirib ki, Dövlət Vergi Xidmətinin xətti ilə yığılan vergilərin 1 milyard 530 milyon manat, Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların 924,7 milyon manat artırılması, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin 457,7 milyon manat artırılması təklif edilir. Təsdiq olunmuş dövlət büdcəsində mövcud olan xərclər arasında aparılması planlaşdırılan yerdəyişmələrin həcmi 1 milyard 122,9 milyon manat təşkil edəcək.

Tahir Mirkişili öz çıxışında dövlət büdcəsində aparılan yerdəyişmələrin hesabına yaranan ehtiyat vəsaitlərinin yönəlməsi nəzərdə tutulan istiqamətlər barədə məlumat verib. O diqqətə çatdırıb ki, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən yenidənqurma işlərinin sürətləndirilməsi üçün tədbirlərin maliyyələşdirilməsinə 2 milyard 260 milyon manat, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması sahəsində tədbirlərin maliyyələşməsinə 1 milyard 105 milyon manat vəsaitin yönəlməsi planlaşdırılır.

Qeyd olunub ki, bununla yanaşı, bir sıra digər istiqamətlər üzrə də əlavə xərclərə vəsaitin yönəldilməsi təklif olunur. Belə ki, ölkəmizin həmtəsisçisi olduğu Beynəlxalq İnvestisiya və İnkişaf Fondlarının Nizamnamə kapitalında Azərbaycan tərəfinin payının maliyyələşdirilməsi, ölkəni yeni "Azərsky2" peykinin orbitə çıxarılması ilə əlaqədar "Azərkosmos" Səhmdar Cəmiyyətinin Nizamnamə kapitalının artırılması üçün 297,5 milyon manat, habelə beynəlxalq münasibətlər və digər beynəlxalq fəaliyyətlə bağlı xərclər üçün əlavə 139 milyon 600 min manat, o cümlədən xarici ölkələrə maliyyə yardımının göstərilməsi üçün 100 milyon manat, dəmir yolu sahəsində, ölkə ərazisində elektrik enerjisi təchizatı və digər infrastruktur layihələr üzrə yenidənqurma və əsaslı təmir xərcləri üçün 128 milyon manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması üçün 50 milyon manat, bəzi büdcə təşkilatlarının maddi-texniki təminatının yaxşılaşdırılması və digər zəruri tədbirlərin maliyyə təminatı üçün 102 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclər üçün əlavə 177 milyon 500 min manat, dövlət büdcəsindən maliyyələşən bəzi təşkilatların əlavə büdcədənkənar gəlirləri hesabına xərclərinin artırılması üçün 79 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Komitə sədri bildirib ki, 2023-cü ildə ümumi daxili məhsulun nominal həcminin 111,5 milyard manat, ÜDM-in real artım tempinin 1,8 faiz, orta illik inflyasiyanın 10,4 faiz, xam neftin 1 barelinin orta illik qiymətinin 60 ABŞ dolları olacağı proqnozlaşdırılıb.

Məlumat verilib ki, yenidən baxılmış 2023-cü il icmal büdcənin gəlirləri 42 milyard 949 milyon, xərcləri isə 41 milyard 214 milyon manat proqnozlaşdırılır.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş) və "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (ikinci oxunuş) barədə qanun layihələrini təqdim edib.

Komitə sədri bildirib ki, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri və xərclərinin bərabər olaraq 4 milyon manat artırılaraq 6 milyard 268 milyon manata çatdırılması təklif olunur. İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri və xərclərinin bərabər olaraq 5 milyon manat artırılaraq 217,7 milyon manata çatdırılması nəzərdə tutulub.



İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu qanun layihələri barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb.

Qanun layihələri ətrafında aparılan müzakirələrdə çıxış edən komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Əli Məsimli, Vüqar Bayramov, Jalə Əliyeva, Etibar Əliyev, Fəzail Ağamalı, Emin Hacıyev, Bəxtiyar Sadıqov 2023-cü ilin büdcəsinə edilən dəyişiklikləri, xüsusilə seçilmiş prioritetləri müsbət qiymətləndiriblər. Millət vəkilləri bəzi qeyd və təkliflərini də səsləndiriblər.

İclasda maliyyə naziri Samir Şərifov çıxış edərək qanun layihələri barədə fikirləri açıqlayıb, qaldırılan məsələlərə münasibət bildirib. O, parlamentlə hökumət arasında faydalı əməkdaşlığın və qarşılıqlı anlaşmanın müsbət təcrübəsinin olduğunu qeyd edib. Bildirib ki, hökumət tərəfindən millət vəkillərinin səsləndirdiyi təkliflər nəzərdən keçiriləcək, onların real maliyyə tutumu öyrənildikdən sonra mərhələli qaydada bəzilərinin növbəti illərin dövlət və icmal büdcələrinin layihələrində büdcə imkanları çərçivəsində baxılması təmin ediləcək.

Sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev çıxış edərək Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun dürüstləşmiş büdcəsi ilə bağlı səslənən fikirlərə münasibət bildirib.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında", "Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2023-cü il büdcəsi haqqında" qanunlarda dəyişikliklərin edilməsi ilə bağlı qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti məsələsinin üçüncü oxunuşda təqdim edilən "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin olduğunu söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsini təqdim edərək, sənəd barədə birinci və ikinci oxunuşda ətraflı məlumat verildiyini, müzakirələr zamanı qaldırılan məsələlərin geniş şərh edildiyini söyləyib.

O nəzərə çatdırıb ki, 2022-ci il dövlət büdcəsinin gəlirləri 29 197,8 milyon manat proqnoza qarşı 30 679,6 milyon manat təşkil edib. Dövlət büdcəsinin xərclərinin icrası isə təsdiq olunmuş 32 303,8 milyon manat vəsaitin 99,3 faizi səviyyəsində olub. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2022-ci ilin dövlət büdcəsindən ümumilikdə 4 milyard 311 milyon manat vəsait xərclənib. Hesabat ilində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsi üçün 2 418,7 milyon manat vəsait yönəldilib. Qeyd olunub ki, 2022-ci ilin dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 milyard 106 milyon manat proqnozla təsdiq olunsa da, faktiki icra 1 milyard 385 milyon manat təşkil edib.

Komitə sədri bildirib ki, 2022-ci il üçün dövlət büdcəsinin icrası ölkə Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilmiş inkişaf və dəstək kursunun ardıcıl olaraq həyata keçirilməsi, strateji dövlət vəzifələrinin yerinə yetirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizlik məsələlərinin həlli, işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması və iqtisadiyyatın stimullaşdırılması üçün qarşıya qoyulan hədəflərə çatmaqda lazımi maliyyə təminatı yaradıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Parlamentin spikeri Sahibə Qafarova növbəti məsələnin "Qara Dəniz Ticarət və İnkişaf Bankının kapitalının artımı ilə bağlı paylara abunəlik üçün Öhdəlik Məktubu"nun təsdiq edilməsi haqqında qanun layihəsi olduğunu deyib. O qeyd edib ki, beynəlxalq sənədin təsdiq edilməsi ilə bağlı olduğuna görə, bu qanun layihəsi müvafiq Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək.

Məsələ barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O bildirib ki, "Qara Dəniz Ticarət və İnkişaf Bankının kapitalının artımı ilə bağlı paylara abunəlik üçün Öhdəlik Məktubu" 2022-ci il 22 aprel tarixində imzalanıb. Bu bank Azərbaycan Respublikasının da iştirakı ilə 1997-ci ildə təsis edilib.

Qeyd edilib ki, bankın nizamnamə kapitalı ilkin mərhələ olaraq artırılaraq 2,3 milyard avro ekvivalentinə qaldırılıb. Sonradan 2021-ci ilin oktyabrda artırılmış 816,537 milyon avro dəyərində 710,032 ədəd səhmin abunə kapitalında artımı ikinci mərhələ qismində təklif olunub.

Hazırkı sənədə əsasən Azərbaycan tərəfi hər birinin nominal alış qiymətinin dəyəri 1150 avro olan Qara Dəniz Ticarət və İnkişaf Bankının 35680 ədəd səhminə abunə olur və 41,032,000 avro məcmu alış qiymətinin ödənilməsinə razılıq verir. Beləliklə, Azərbaycan Respublikası QDTİB-in abunə kapitalının artımına son, qeyd-şərtsiz və qaytarılmayan abunəliyinə qoşulmuş hesab ediləcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva təmsil etdiyi komitənin bu məsələ barədə rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin digər 3 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu deyib. O, növbəti 2 məsələnin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu, mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (üçüncü oxunuş) və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (üçüncü oxunuş) barədə qanun layihələrini təqdim edib. O, hər iki sənədin üçüncü oxunuşun tələblərinə cavab verdiyini söyləyib və səsə qoyulmasını xahiş edib.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsi barədə məlumat verib. O, birinci və ikinci oxunuş zamanı məsələ barədə ətraflı məlumat verildiyini, əlavə təklif və dəyişikliyin daxil olmadığını söyləyərək layihənin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin qalan 6 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu söyləyib. O, növbəti 4 məsələnin - "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu, məzmun və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib.

Sonra Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

O bildirib ki, qanun layihəsində nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı yeni fəslin əlavə edilməsi təklif olunur. Təklif olunan dəyişikliklər insanların həyat və sağlamlığının qorunmasına, ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılmasına, avtonəqliyyat vasitələrindən atmosferə daxil olan zərərli maddələrin miqdarının azaldılmasına, avtomobil parkının yenilənməsinə, köhnə və texniki cəhətdən tələblərə cavab verməyən nəqliyyat vasitələrinin dövriyyədən çıxarılmasına, bunun nəticəsində yol-nəqliyyat hadisələrinin sayının azaldılmasına, istismara yararsız nəqliyyat vasitələri və onların ehtiyat hissələrinin tərkibindəki təhlükəli və digər tullantıların ətraf mühitə mənfi təsirinin azaldılmasına, habelə ölkəmizdə avtomobil istehsalının stimullaşdırılmasına xidmət edəcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov digər iki məsələ - İnzibati Xətalar Məcəlləsində və "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi ilə bağlı qanun layihələrini ikinci oxunuşda diqqətə çatdırıb. O, bu sənədlərdə hər hansı dəyişikliyin olmadığını deyərək layihələri səsə qoymağı xahiş edib. Qanun layihələrində utilizasiyası ilə bağlı qanunvericilikdə yeni yaranan münasibətlərə görə yeni inzibati qaydaların və xətaların müəyyən edilməsi təklif olunur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihəsi barədə məlumat verib. O bildirib ki, layihədə təklif edilən dəyişikliklər ölkənin gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 il keçən minik avtomobillərinin gömrük rəsmiləşdirilməsi zamanı utilizasiya haqqının tutulmasını nəzərdə tutur.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov son 3 məsələ barədə bu komitənin müsbət rəy verdiyini bildirib.

Deputat Vüqar Bayramov öz fikirlərini və bəzi təkliflərini səsləndirdikdən sonra təqdim edilən 4 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Dəyişikliyə əsasən, əmək şəraitindən asılı olmayaraq işəgötürən müvafiq normativ hüquqi aktla müəyyən edilmiş qaydada iş yerlərinin attestasiyasının keçirilməsini və attestasiyanın aparılması nəticələrinə dair sənədlərin surətinin 10 iş günü müddətində məlumat üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim olunmasını təmin etməlidir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov gündəliyin sonuncu məsələsi - İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) nəzərə çatdırıb. O, layihəyə dair hər hansı təklifin daxil olmadığını deyib və sənədin səsə qoyulmasını xahiş edib.

Layihəyə əsasən, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədini daşıyır. Sənəddə yol-nəqliyyat hadisələrinin baş verməsinin səbəblərindən biri olan nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə, xüsusilə narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə etməklə idarə edilməsinə görə inzibati məsuliyyətin sərtləşdirilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, sabah Azərbaycan xalqının Ümummilli Lideri, dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən Milli Məclisin xüsusi iclası olacaq.

Bununla da Milli Məclisin bugünkü iclası başa çatıb.

***Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# Vitse-spiker Adil Əliyev Mərakeşdə səfərdədir



**Mərakeş Krallığında səfərdə olan Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Kasablanka şəhərində Mərakeşin Boks Federasiyasının prezidenti Abdelkarim El-Hilali və Taekvondo Federasiyasının prezidenti Driss El-Hilali ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə vitse-spiker Ümummilli Lider Heydər Əliyevin uğurlu idman siyasətindən, cənab İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə Azərbaycanda idmanın uğurlu inkişaf mərhələsinə qədəm qoymasından bəhs edib. Bu gün Azərbaycanda bədən tərbiyəsi və idmanın kütləviləşdiyini, idmançılarımızın beynəlxalq yarışlarda böyük uğurlar əldə etdiyini bildirən Adil Əliyev ölkəmizin dünyanın idman ölkələrindən birinə çevrildiyini və beynəlxalq olimpiya yarışlarına və digər nüfuzlu idman tədbirlərinə evsahibliyi etdiyini diqqətə çatdırıb. Söhbətdə idmanla bağlı müxtəlif mövzular müzakirə edilib və gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə ölkəmizin Mərakeşdəki səfiri Nazim Səmədov və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Özbəkistan nümayəndə heyəti ilə görüş



**İyunun 13-də Milli Məclisin İntizam komissiyasının sədri, Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov Özbəkistan Respublikası xarici işlər nazirinin müavini Bobur Usmanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Eldar İbrahimov Azərbaycanın Özbəkistanla əlaqələrinin hərtərəfli inkişafına böyük əhəmiyyət verdiyini deyib. Ölkələrimiz arasındakı tarixi, mənəvi bağlardan söz açan komissiya sədri dövlət başçılarımızın yüksəksəviyyəli münasibətlərinin əməkdaşlığımızın müasir dövrdə dinamik inkişafına təkan verməsindən danışıb.

İkitərəfli əlaqələrin dərinləşməsində qanunverici orqanların özünəməxsus roluna toxunan Eldar İbrahimov Milli Məclisin Sədri Sahibə Qafarovanın keçən il Özbəkistana səfəri çərçivəsində Azərbaycan və Özbəkistan qanunverici orqanları arasında əməkdaşlıq haqqında sazişin və "Yol xəritəsi"nin imzalanmasını parlamentlərarası əməkdaşlığın möhkəmlənməsinə yeni imkanlar yaratdığını bildirib.

Azərbaycanın Ermənistanın işğalından azad edilmiş ərazilərində aparılan bərpa işlərində Özbəkistanın iştirakından bəhs edən Eldar İbrahimov Prezident Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzuli rayonunda böyük məktəbin tikintisini ölkələrimiz arasında qardaşlığın növbəti addımı kimi qiymətləndirib və əməkdaşlığın möhkəmləndirilməsi barədə fikirlərini bölüşüb.

Babur Usmanov qəbula görə təşəkkür edərək Özbəkistanın dost və qardaş Azərbaycanla əlaqələrini daha da inkişaf etdirmək niyyətini vurğulayıb və bu istiqamətdə yeni imkanların araşdırılmasından bəhs edib.

Milli Məclisin Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Cavanşir Paşazadə, Elman Nəsirov və Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov çıxış edərək ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikirlərini səsləndiriblər.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə deputatlar Aydın Hüseynov, Anar Məmmədov, Özbəkistan Xarici İşlər Nazirliyinin idarə rəisi Cahongir Əminov və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Hərbi qulluqçularımız ehtimal olunan istənilən təxribatların qarşısını almağa hər an hazırdırlar



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrin xidməti-döyüş fəaliyyəti yüksək səviyyədə təşkil edilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, çətin relyefli və yüksək dağlıq ərazilərdəki mövqelərdə yerləşən bölmələrdə günün nizam qaydalarına uyğun olaraq sutka boyu döyüş növbətçiliyi təşkil olunur, fasiləsiz xidmət aparılır.

Şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazırolma və mənəvi-psixoloji vəziyyətin daim yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Azad edilmiş ərazilərdə xidmət aparan hərbi qulluqçularımız ehtimal olunan istənilən təxribatların qarşısını almağa hər an hazırdırlar.

# Daxili işlər naziri İsmayıllıda vətəndaş qəbulu və sıra baxışı keçirib





**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 12-13-də İsmayıllı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir əvvəlcə İsmayıllı şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Ağsu, İsmayıllı, Göyçay, Qobustan və Şamaxı rayonlarından qəbula gələn 161 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 27-si Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 101 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Azərbaycanın sülh quruculuğu tədbirlərinə qarşı təxribatlara görə məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin məlumatına əsasən, iyunun 13-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini minaatanlar da daxil olmaqla iriçaplı silahlardan atəşə tutub. Ermənistan tərəfinin təxribatının qarşısının alınması məqsədilə ordumuzun bölmələri tərəfindən müvafiq cavab tədbirləri görülüb.**

Ermənistan tərəfinin bu növbəti hərbi təxribatını qətiyyətlə pisləyir və Ermənistan tərəfindən son zamanlar daha da artan təcavüzkar ritorikasından əl çəkməyi və bölgədə gərginliyi artıran bu kimi addımlara son qoymağı tələb edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

Qeyd olunub ki, bununla yanaşı, guya Azərbaycanın Ermənistanda tikilməkdə olan metallurgiya zavodunu məqsədyönlü şəkildə hədəf alması barədə Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını qətiyyətlə rədd edirik.

Azərbaycanın təxribat törətməklə Ermənistanda sərmayələrin cəlb edilməsinə mane olmaq məqsədi daşıdığı barədə iddiaya gəldikdə qeyd edək ki, Ermənistan qonşu ölkələrə qarşı ərazi iddiaları irəli sürməklə və Azərbaycanın ərazilərini 30 ilə yaxın işğal altında saxlamaqla özünütəcrid siyasəti yürüdüb, bununla da bütün beynəlxalq layihələrdən kənar qalıb. Öhdəliklərinə zidd olaraq bölgədə iqtisadi inkişafa təkan verəcək kommunikasiya xətlərinin açılmasına hər vəchlə mane olan tərəfin də Ermənistan olduğu hər kəsə məlumdur. Bununla əlaqədar Ermənistan tərəfinin iddialarının heç bir əsası yoxdur.

Bölgədə Azərbaycanın apardığı sülh quruculuğu tədbirlərinə və yenidənqurma işlərinə qarşı təxribatlara görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# ADA Universitetində bu il 600-dək tələbə məzun olub









**İyunun 13-də ADA Universitetində "Məzun günü" keçirilib. Tədbirdə tələbələrlə yanaşı, onların ailə üzvləri, professor-müəllim və işçi heyəti, eləcə də dövlət və özəl qurumları təmsil edən qonaqlar iştirak ediblər.**





AZƏRTAC xəbər verir ki, tədbir universitetdə təhsil alan əcnəbi tələbələr tərəfindən təmsil edilən ölkələrin bayraqlarının səhnəyə gətirilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Daha sonra tədbirin aparıcıları Mənzər Əmirli və Qədir Səfərli builki bakalavr məzunların adından çıxış etmələri üçün İnci Rüstəmovanı və Fatimə Davudlunu, magistr məzunlarını təmsil etməsi üçün isə Murad Malik Aslanovu səhnəyə dəvət ediblər.

ADA təhsili sayəsində əldə etdikləri nailiyyətlərdən bəhs edən və yenicə məzun olmağa hazırlaşan çıxışçılar burada təhsil dövründə yaşadıqları ən unudulmaz anları yada salıblar. Məzunlar onların akademik, şəxsi və peşəkar inkişafında əvəzsiz rolu olan ADA Universitetinin müəllimlərinə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirdə çıxış edən ADA Universitetinin akademik işlər üzrə prorektoru Vəfa Kazdal tələbələrin, məzunların və müəllim heyətinin uğurlarına toxunub.

"Hansı ildə məzun olmağınıza baxmayaraq və harada olmağınızdan asılı olmayaraq, sizin daim ADA dəyərlərinin daşıyıcısı olacağınıza və burada aşılanan layiqli vətəndaş prinsiplərinə hər zaman sadiq qalacağınıza əminəm", - deyən Vəfa Kazdal onlara gələcək fəaliyyətlərində uğurlara imza atmağı və öz əməlləri ilə digərlərini ilhamlandırmağı arzu edib.

Məzunlar qarşısında çıxış edən Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Taleh Kazımov "Məzun günü"nü yeniliklərin başlanğıcı kimi qiymətləndirib.

"Sürətlə dəyişən hazırkı dövrdə ən böyük dəyərinizi - öz bilik və bacarığınızı böyük təsirə malik işlərə görməyə sərf edin", - söyləyən Taleh Kazımov məzunları arzularını, məqsədlərini düzgün müəyyənləşdirməyə, cəmiyyətə faydalı işlər görməyə səsləyib.

Tədbirdə ADA Universitetinin rektoru səfir Hafiz Paşayev çıxış edərək məzunlara peşəkar həyatlarında uğur qazandıracaq dəyərli tövsiyələr verib. ADA-nın 2011-ci ildə cəmi 16 məzunun iştirakı ilə "Məzun günü" keçirdiyini, lakin bu gün məzunların sayının dəfələrlə çox olduğunu, hətta həmin məzunlar arasında Vətən müharibəsi iştirakçısının da olduğunu bildirib.

"Universitetin missiyası yalnız təhsil vermək deyil, onun missiyası həm də sosial məsuliyyətə malik vətəndaşlar yetişdirməkdir", - deyən rektor ADA Universitetinin hazırkı layihələrindən bəhs edib. O, həmçinin İtaliya-Azərbaycan Universiteti çərçivəsində təqdim edilən iki yeni fakültədən, eləcə də ADA Universitetinin regionda fəaliyyət göstərənlər üçün təqdim etdiyi azərbaycandilli magistr ixtisaslarından söhbət açıb.

Çıxışlar başa çatdıqdan sonra ADA Universitetinin Tələbə qəbulu və qeydiyyat şöbəsinin direktoru Günay Ziyadova səhnəyə dəvət edilib və bununla da diplomların təqdim olunması mərasimi elan edilib.

Diplomlar ixtisaslar üzrə müvafiq olaraq İctimai və beynəlxalq münasibətlər fakültəsinin dekanı Anar Vəliyev, Biznes fakültəsinin dekanı Hüseyn İsmayılov, İnformasiya texnologiyaları və mühəndislik fakültəsinin dekanı Abzatdin Adamov, Təhsil fakültəsinin dekanı Ülviyyə Mikayılova və Hüquq fakültəsinin dekanı Rəşad İbadov tərəfindən təqdim edilib.

Qeyd edək ki, tədbirin qonaqları qismində Vəkillər Kollegiyasının sədri Anar Bağırov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri Anar Kərimov, xarici işlər nazirinin müavini Elnur Məmmədov, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, "Azərxalça" ASC İdarə Heyətinin sədri Emin Məmmədov və digər dövlət qurumlarından səlahiyyətli şəxslər iştirak ediblər.

Rektor Hafiz Paşayevin ADA Universitetinin 2023-cü il məzunlarını elan etməsindən sonra tədbirin rəsmi hissəsi başa çatıb və bədii proqram başlanıb. Məzunlar klassik və müasir musiqilərin fonunda əyləncəli anlar keçiriblər.

Xatırladaq ki, ümumilikdə 2022-2023-cü akademik il üzrə ADA Universitetində 8 bakalavr və 8 magistr ixtisası üzrə 571 tələbə məzun olub. Məzun olan tələbələrin 548-i yerli, 23-ü isə əcnəbidir.

Bu il məzun olan əcnəbi tələbələr 14 müxtəlif ölkəni təmsil edirlər. Həmin ölkələr arasında Belarus, Gürcüstan, İndoneziya, İran, Meksika, Moldova, Mozambik, Özbəkistan, Qazaxıstan, Rusiya Federasiyası, Seyşel Adaları, Sudan, Tacikistan, Ukrayna yer tutur.

# Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti Ermənistana ciddi təzyiq göstərməyə çağırır

Məlum olduğu kimi, Ermənistan hökuməti bu ölkədən qovduğu azərbaycanlıların qayıtmasına imkan vermir və onların mədəni irsini dağıtmaqda davam edir. Ermənistan azərbaycanlıların öz evlərinə qayıtmasına hazırlıq məqsədilə BMT-nin missiyasını və Azərbaycan mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi üçün UNESCO-nun faktaraşdırıcı missiyasını qəbul etməkdən imtina edir. Bundan əlavə, Ermənistan hökuməti Qərbi Azərbaycan İcmasının dialoq çağırışlarına cavab vermir.

AZƏRTAC xəbər verir ki, bu fikir Qərbi Azərbaycan İcmasının mətbuata açıqlamasında yer alıb.

Açıqlamada bildirilib ki, bu azmış kimi, Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaqda davam edir. Bu ölkənin Xarici İşlər Nazirliyi bu gün Azərbaycana hansısa missiyanın göndərilməsinə dair çağırış etmiş və Azərbaycanı etnik təmizləmə aparmaq niyyətində olmaqda ittiham etmişdir.

Beynəlxalq hüququn prinsiplərinə, o cümlədən ərazi bütövlüyü prinsipinə hörmətlə yanaşdığını dəfələrlə bəyan etmiş icmamızın dialoq çağırışına cavab verməyən və öz ərazisində bir nəfər də olsun azərbaycanlı qoymamış Ermənistan hökumətinin Azərbaycan tərəfinin etnik təmizləmə niyyətində olması kimi absurd iddia irəli sürməsi və insan hüquqlarından danışması ən mənfur riyakarlıqdır. Bütün bunlar Ermənistanın Azərbaycanafob siyasətini və Azərbaycana qarşı ərazi iddiasını bariz şəkildə göstərir.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən beynəlxalq hüquqa və insan haqlarına zidd siyasətindən əl çəkməyi, qovduğu azərbaycanlıların beynəlxalq verifikasiya və zəmanət mexanizmləri çərçivəsində öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarına şərait yaratmağı, bu məqsədlə BMT və UNESCO-nun missiyalarını qəbul etməyi tələb edir.

İcma həmçinin beynəlxalq ictimaiyyəti Ermənistanı beynəlxalq hüquqa zidd davranışlardan, o cümlədən bizim qayıdış hüququmuza əngəl törətməkdən və Azərbaycana qarşı ərazi iddiasından çəkindirmək üçün bu ölkəyə ciddi təzyiqlər etməyə çağırır.



## Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə

30

# Dahilik simvolu

**Xalqımız tərəfindən 15 İyun - Milli Qurtuluş Günü müasir tariximizin ən önəmli hadisəsi kimi qeyd edilir, dəyərləndirilir. Bu, onunla əlaqədardır ki, insanlar bugünkü həyatlarını, ölkəmizin firavanlığını və gələcəklə bağlı aydın görünən perspektivlərini Milli Qurtuluş Günü ilə, Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirirlər.**



Çünki Azərbaycanın müasir tarixində, hər bir vətəndaşın həyatında baş verən müsbət dəyişikliklər, ilk növbədə, Heydər Əliyevin möhtəşəm qayıdışı və bu qayıdışın yaratdığı qurtuluş Azərbaycan xalqının istəyinin və iradəsinin ifadəsi kimi qəbul olunur.

Ölkəmizin tarixinin ən həssas dövründə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın mövcudluğunun, müstəqilliyinin və gələcək inkişafının yeganə və həlledici səbəbi kimi qavranılır. Bu gün o dövrə qayıdarkən və Azərbaycanın indiki reallıqlarını göz önünə gətirib müqayisə apararkən Heydər Əliyevin möhtəşəm qayıdışının Azərbaycanın müasir tarixində və hər bir vətəndaşın həyatında nə qədər önəmli hadisə olduğunu dəyərləndirmək çətin olmaz. Heydər Əliyevin tarixi qayıdışı Azərbaycanın müstəqilliyinin xilası idi. Bu, Heydər Əliyevin xilaskarlıq missiyasını özündə ehtiva edirdi.

Dünyada çox az düha sahibinə tarixi qayıdış etmək hünəri qismət olub. Dahi şəxsiyyət, dünyaşöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin tarixi qayıdışı ilə ölkəmiz əzəmətli dəyişikliklərə, milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə nail olub. Bu, bir həqiqətdir. Məhz Ulu Öndərin səyi nəticəsində Azərbaycan dönməz müstəqilliyə, inkişafa, tərəqqiyə qədəm qoydu. O, bütün ömrünü xalqımızın firavan həyatına, xoşbəxt gələcəyinə sərf etdi, milli dövlətçiliyimizin banisi kimi Azərbaycan xalqının Ümummilli Lideri oldu.

Qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı uzun müddətdən sonra - 1991-ci ilin oktyabrında öz müstəqilliyinə yenidən qovuşsa da, təəssüf ki, müstəqilliyin ilk illərində həm siyasi hakimiyyətdə, həm də dövlətin bütün təsisatlarında bir boşluq, yerlərdə isə mərkəzi hakimiyyətə inamsızlıq hökm sürürdü. Yaranmış fürsətdən istifadə edən bəzi silahlı dəstələrin yol verdikləri başıpozuq hərəkətlər Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaradırdı. Ayrı-ayrı bölgələrdə separatçılıq və parçalanma meyillərinin baş qaldırması bütövlükdə Azərbaycanın bir dövlət kimi varlığına son qoyulması planını tam gücü ilə reallaşdırmağa hesablanmışdı. Bütün bunların fonunda Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə təcavüz edərək hərtərəfli xarici dəstəklə həyata keçirdiyi işğalçılıq siyasəti vəziyyəti daha da gərginləşdirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Əslində, bu, bütün xalqın ürəyinin səsi idi. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Belə bir çətin vəziyyətdə - 1993-cü il iyunun 9-da müstəqil Azərbaycanın müasir tarixində yeni bir mərhələnin başlanğıcı olan parlaq səhifə açıldı. Azərbaycan xalqı müdriklik göstərdi və 1993-cü ildə - vətəndaş müharibəsi ərəfəsində Ulu Öndər Heydər Əliyevə müraciət etdi.

Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya gəldi, iyunun 15-də isə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Beləliklə, respublikamız müstəqilliyi itirmək təhlükəsindən qurtuldu. Azərbaycanın sabitlik və inkişafla səciyyələnən qurtuluş tarixi başladı.

Siyasi rəhbərliyə dəvət edilən Ulu Öndərin müdrikliyi, cəsarəti, millətə olan məhəbbəti və xalqın ona olan inamı nəticəsində Azərbaycan o böhranlı vəziyyətdən çıxa bildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.

Azərbaycan kimi qədim dövlətçilik tarixinə, milli ruha malik xalqı uzun müddət tabeçilikdə saxlamağın, diktə siyasətini həyata keçirib, istismarçı sosial-iqtisadi sistemi qoruyub saxlamaqla milli bərabərsizliyi və zülmü təbliğ etməyin, anarxiya, qanunsuzluq, qardaş qırğınının mümkünsüzlüyünü məhz Qurtuluş Günü sübut etdi. Xalqımızın təkidli xahişlə heç kimə deyil, məhz Ulu Öndər Heydər Əliyevə müraciət etməsi, yalnız bu dahi şəxsiyyətə güvənməsi də Qurtuluş Gününün milli məsələ, qürur və ləyaqət məsələsi olduğundan xəbər verir. Bütün bu məfhumların simvolu isə dahi şəxsiyyət, məhz xalq qarşısında etdiyi əməllərə görə Ümummilli Lider adını qazanan Heydər Əliyevdir.

Ulu Öndər ən çətin zamanda dövlətçiliyimizi məhv olmaq təhlükəsindən qorumaqla, ölkəmizdə ictimai-siyasi sabitliyi və vətəndaş həmrəyliyini təmin etməklə bu günümüzə müstəqil Azərbaycan dövlətini bəxş etdi. Bununla da ən yeni tariximizdə əbədi yaşamaq hüququ qazandı.

Vətən müharibəsində qazandığımız tarixi zəfərimizin qürurunu yaşadığımız son üç ildə Heydər Əliyevin əsasını qoyduğu güclü dövlət, sosial-iqtisadi inkişaf və yenilməz ordu quruculuğundakı xidmətlərini bir daha böyük ehtiramla anırıq.

Ümummilli Liderimiz Heydər Əliyev öz fitri istedadı, dərin zəkası, bilik və bacarığını Azərbaycan xalqının firavan yaşamasına həsr edərək, öz dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarmağı bacardı. Vətənə məhəbbət, Azərbaycan xalqına və dövlətinə bağlılıq Ulu Öndəri bütün həyatı boyu seçilmiş lider kimi fərqləndirib. Dahi rəhbər istər sovet hakimiyyəti dövründə, istərsə də müstəqillik illərində daim öz doğma xalqına və ölkəsinə ləyaqətlə xidmət edib. Xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinə aparan təhlükəli proseslərin, vətəndaş qarşıdurmasının, ölkədə baş alıb gedən xaos və anarxiyanın, hakimiyyətsizliyin qarşısını aldı. Bu tarixi qayıdış ölkədə ictimai-siyasi sabitliyin bərqərar olmasına, müstəqil dövlət quruculuğuna, sosial-iqtisadi dirçəlişə, dövlətimizin müstəqil siyasət yürüdərək dünya birliyində mövqeyinin gücləndirilməsinə geniş imkanlar açdı. Sosial ədalət, milli həmrəylik təmin edildi.

Ulu Öndər ölkəmizdə ictimai-siyasi vəziyyətin böhranlı dönəmdə öz həyatını belə təhlükə altında qoyaraq, bütün məsuliyyəti öz çiyinlərinə götürdü və bütöv bir xalqın, millətin xilaskarına çevrildi. Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın memarı və böyük dövlət xadimi kimi ən mühüm missiyanı gerçəkləşdirərək yeni tariximizi öz əlləri ilə yazdı. Qısa zaman kəsiyində əvəzolunmaz lider respublikamızın iqtisadi yüksəlişinə nail oldu, onun beynəlxalq nüfuzunun yüksəlməsində əzmkarlıq nümayiş etdirdi.

Beləliklə, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş dahi rəhbərimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla, ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. "İqtisadiyyatı güclü olan xalq hər şeyə qadirdir" deyən Ulu Öndərin rəhbərliyi ilə respublikamızın iqtisadiyyatının gücləndirilməsi istiqamətində mühüm addımlar atıldı.

Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi. Bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu.

Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi.

Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. Heydər Əliyev dühasının xidmətləri olan bu nailiyyətlər Azərbaycanı məhv olmaqdan qurtardı, müstəqilliyimizi daimi, əbədi, sarsılmaz, dönməz etdi. Bütün bunlar 1993-cü il 15 iyun tarixinin nailiyyətləridir. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması, qurtuluş deməkdir.

Təbii ki, hər bir bayram keçilən yolun təhlilinə bələdçilik edir. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Milli Qurtuluş Günü Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərinin aydın ifadəsini yaratmaqla yanaşı, onun ideyalarının dünənimiz, bu günümüz və gələcəyimiz üçün əsas olduğunu bir daha indiki və gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır.

Bu günümüzün reallıqları Qurtuluş Gününün Azərbaycanın qarşısında hansı imkanları açdığına işıq salır. Dünya tarixinə istinadən bu fikir qeyd edilir ki, böyük şəxsiyyətlərin ideyaları yalnız bu gün deyil, gələcək üçün yol göstərən olur. Məhz bu ideyalar inkişaf strategiyasının istiqamətlərini müəyyənləşdirir, yeni-yeni hədəflərin gerçəkliyə çevrilməsini şərtləndirir. Dahi şəxsiyyət Heydər Əliyevin "əbədiyaşar lider" kimi təqdimatında da onun xidmətləri ilə yanaşı, sabahımıza işıq salan ideyaları əsas rol oynayır. Hər kəs bu ideyaların həyata keçirilməsinə, Heydər Əliyev irsinin öyrənilməsinə və təbliğinə öz töhfəsini verməli, dahi şəxsiyyətin şah əsəri olan müstəqil müasir Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə səy göstərməlidir.

2020-ci il tariximizə Zəfər ili kimi yazıldı. Məhz 1993-cü ilin 15 iyununda başlayan milli qurtuluş yolu 2020-ci ilin 8 noyabrında Azərbaycana öz tarixinin ən böyük zəfərini yazmaq imkanı yaratdı. Azərbaycan xalqının qurtuluşdan zəfərə gedən yolu həm də Azərbaycan xalqının zəfər tarixidir.

Bu gün hər birimiz qalib bir ölkənin vətəndaşı olaraq qürurluyuq. Fədakar, vətənpərvər əsgər və zabitlərimiz ərazilərimizi cəmi 44 gündə azad etdi. Əldə etdiyimiz bu tarixi zəfərə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti, müdrik və uzaqgörən siyasəti, yenilməz, rəşadətli Azərbaycan Ordusunun şəxsi heyətinin şücaəti, qəhrəmanlığı, öz doğma Vətəninə olan sevgisi sayəsində nail olduq.

Vətən müharibəsində müasir hərb tariximizin ən şanlı qələbəsini qazandıq. Təbii ki, bu qələbədə xalq və cəmiyyət olaraq birliyimiz və həmrəyliyimiz də mühüm rol oynadı. Azərbaycan xalqına bu qələbə sevincini bəxş edən Ali Baş Komandana və Azərbaycan əsgərinə, bu tarixi qanı, canı ilə yazan şəhidlərimizə və qazilərimizə borcluyuq. Xalqla iqtidarın monolit birliyi Azərbaycana son yüzilliklər ərzində əldə etmədiyi qələbə sevincini yaşatdı və 30 ilə yaxın işğalda olan ərazilərimizi, torpaqlarımızı əsl sahibinə - xalqımıza qaytardı. Bununla da Ali Baş Komandan İlham Əliyev öz adını nəinki Azərbaycan tarixinə, həm də dünya hərb tarixinə qızıl hərflərlə yazdı.

Hər zaman olduğu kimi, Vətən müharibəsindən sonra da Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçılarına diqqət və qayğı daimidir. Ölkə başçısının və Mehriban xanım Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, cəmiyyətimiz tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilir. Göründüyü kimi, şəhid ailələrinin, müharibə əlillərinin daim diqqətdə saxlanılması Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən biridir.

Bu gün işğaldan azad olunmuş torpaqlarımızda üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Vətən müharibəsinin başa çatmasından ötən qısa müddətdə Qarabağda aparılan bərpa və yenidənqurma işləri bütün məziyyətləri ilə yanaşı, dövlətimizin gücünün təsdiqidir. Qısa müddətdə nəhəng infrastruktur layihələrinin icrasının başa çatdırılması torpaqlarımızın xilaskarı Prezident İlham Əliyevin böyük siyasi iradəsinin təcəssümüdür.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan azad edilmiş torpaqlarda infrastruktur layihələrinin təməlini qoyur, Böyük qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələr fəth ediləcək, düşmənin yerləyeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək.

Bu il xalqımız üçün olduqca əlamətdardır. Belə ki, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini qeyd edirik. Bu gün əldə etdiyimiz bütün qələbələrin, uğurların əsasında Heydər Əliyevin möhkəm təməlini qoyduğu siyasi kurs, inkişaf strategiyası dayanır. Ümummilli Liderimiz Heydər Əliyev elə bir müstəqil dövlət yaradıb ki, onun əzəmətli dayaqları üzərində Azərbaycan daim inkişaf edəcək və möhtəşəm nailiyyətlər qazanacaq.

*Bu siyasi kurs Azərbaycanımızı daha böyük uğurlu gələcəyə aparır. Azərbaycan və Heydər Əliyev adı əsrlər boyu qoşa səslənəcəkdir. Onun nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.*

**Asif ƏSGƏROV,**
***Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı***

# Ulu Öndərin hər liderə məxsus olmayan zəngin idarəçilik təcrübəsi var idi

**Kremlin qapılarını yüksək vəzifəli şəxs kimi xalqımızın mənəvi kimliyinin simvolu Ulu Öndər Heydər Əliyev açdı.**

1982-ci ilin dekabrında o zaman SSRİ-nin əsas idarəetmə orqanı, bütün siyasi qərarların qəbul olunduğu Sov.İKP MK-nin Siyasi Bürosunun üzvü seçilən Ulu Öndər eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olundu. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etdi və sovetlər məkanında bir neçə mühüm layihənin həyata keçirilməsi də məhz onun adı ilə bağlı oldu.

Ulu Öndər uzaqgörənliyi ilə seçilən, işgüzarlığı ilə fərqlənən, fitri istedadı və möhkəm hafizəsi ilə insanları təəccübləndirməyi bacaran fenomen bir şəxsiyyət idi. Elə SSRİ rəhbərliyində çalışdığı illərdə gördüyü işlərin siyahısına, rəhbərlik etdiyi sahələrə nəzər yetirəndə bu böyük şəxsiyyətin daxili potensialının nəyə qadir olduğunu anlamaq çətin olmur. Sirr deyil ki, SSRİ dünyanın idarə edilməsinə təsir göstərən nəhəng güclərdən biri, bəlkə də birincisi idi. Belə bir qüdrətli dövlətin Yollar Nazirliyi, Dəniz Donanması Nazirliyi, Yol Tikinti Nazirliyi, Rabitə Nazirliyi, eləcə də müttəfiq respublikaların avtomobil, çay nəqliyyatı və yol təsərrüfatı sisteminə rəhbərlik Heydər Əliyevə tapşırılmışdı. SSRİ Nazirlər Sovetinin Baykal-Amur dəmir yolu tikintisi məsələləri üzrə daimi komissiyasına da Ulu Öndər rəhbərlik edirdi.

Heydər Əliyev idarəetmənin ustadı idi. O zaman SSRİ-yə rəhbərlik edənlər də bunu yaxşı bilirdilər. Elə bu səbəbdən də SSRİ-nin iqtisadi idarəetmə sistemindən tamam fərqli olan humanitar və ən əsası onun onurğa sütununu təşkil edən ideoloji sahəyə rəhbərlik də SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin 1983-cü il fevralın 2-də keçirilən iclasında Heydər Əliyevə həvalə olunmuşdur. Heydər Əliyev artıq SSRİ kimi nəhəng bir dövlətin Səhiyyə Nazirliyinə, Tibb Sənayesi Nazirliyinə, Mədəniyyət Nazirliyinə, Maarif Nazirliyinə, Ali və Orta İxtisas Təhsili Nazirliyinə, Dövlət Texniki-Peşə Təhsili Komitəsinə, Dövlət Teleradio Verilişləri Komitəsinə, Dövlət Kinematoqrafiya Komitəsinə, eləcə də Dövlət Nəşriyyatına, İdman Komitəsinə, Sovet İttifaqı Teleqraf Agentliyinə (SİTA), Dövlət Arxiv və Müəlliflik Hüququ Agentliyi üzrə məsələlərə də artıq rəhbərlik edirdi. Sov.İKP MK-nin ideoloji məsələlər üzrə katibinin rəhbərlik edəcəyi əsas sahə Heydər Əliyevə etibar edilmişdi. Bütün bunlar Ulu Öndərin müqayisəedilməz biliyinin, bacarığının nəticəsində mümkün olmuşdur.

Ulu Öndərin SSRİ-nin xarici siyasətinin tənzimlənməsində də müstəsna rolu olub. Onun SSRİ hökuməti adından xarici dövlətlərin nümayəndə heyətlərini qəbul etməsi və onlarla söhbətləri hər zaman rəhbərlik tərəfindən yüksək qiymətləndirilirdi. 1983-cü ildə Amerika hökumət nümayəndəsinin başçısı C.Blokla danışıqlar sovet-Amerika münasibətlərində yeni bir mərhələnin yaranmasının əsasını qoymuşdur. SSRİ-nin Şərq, Afrika ölkələri, müsəlman dövlətləri ilə əlaqələrinin yaradılmasında da Heydər Əliyevin xidmətlərini inkar etmək mümkün deyil. 1984-cü il martın 12-də Heydər Əliyevin Suriyaya rəsmi səfəri Yaxın Şərqdə sülhün, təhlükəsizliyin qorunmasında mühüm hadisə olmuşdur. 1985-ci ilin dekabrında Anqola Əmək Partiyasının ikinci qurultayında Sov.İKP nümayəndə heyətinə Heydər Əliyev başçılıq edirdi. Qurultayda onun çıxışı böyük hərarətlə qarşılanmışdı. Ulu Öndər Afrika ölkələrində başlanmış azadlıq mübarizəsinə SSRİ-nin həmrəy olduğunu göstərirdi: "Biz Afrika ölkələrinin öz müstəqilliyini xarici qüvvələrin müdaxiləsindən qorumaq sahəsindəki cəhdləri ilə həmrəyik. İrqçilərin azad olmuş ölkələrə, o cümlədən Anqolaya qarşı cəhdlərini qətiyyətlə ittiham edirik".

Sov.İKP MK-nin Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Uzaq Şərq ölkələri arasında əlaqələrin inkişafında da mühüm xidmətlər göstərmiş tarixi şəxsiyyətdir. 1986-cı il iyulun 2-də SSRİ ilə Koreya Xalq Demokratik Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilənin 25 illiyi münasibətilə Moskvada keçirilən təntənəli tədbirlərdə iştirak edən nümayəndə heyəti ilə Heydər Əliyevin söhbətlərini, görüşlərinin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Ulu Öndər Heydər Əliyev 1986-cı il noyabrın 12-də Laos Xalq İnqilab Partiyasının dördüncü qurultayında Sov.İKP nümayəndə heyətinin başçısı kimi iştirak etmişdi. Yenə həmin il sentyabrın 18-də Yəmən Sosialist Partiyası Siyasi Bürosunun üzvü, Nazirlər Soveti sədrinin müavini, Yəmən Xalq Demokratik Respublikası daxili işlər naziri S.Mas-Seyili qəbul edərkən səmimi dostluq şəraitində keçən söhbətdə Sovet İttifaqı və Yəmən Demokratik Respublikası arasında münasibətlərin daha da inkişafı məsələləri müzakirə edilmişdi.

1987-ci il aprelin 15-də Heydər Əliyev Ukrayna Nazirlər Sovetinin dəvəti ilə Sovet İttifaqında səfərdə olan Xorvatiya (Yuqoslaviya) Sosialist Respublikası Saborunun İcraiyyə Veçesinin sədri A.Miloviçi qəbul etmişdi. İkitərəfli münasibətlərin bəzi məsələləri ətrafında fikir mübadiləsi aparılaraq bu kontekstdə SSRİ-nin respublikaları, xüsusilə Ukrayna Respublikası ilə Xorvatiya Sosialist Respublikası arasında əlaqələrin inkişafının əhəmiyyəti qeyd edilmişdi. Bununla da böyük rəhbərin Sovet İttifaqı-Yuqoslaviya xalqları arasında qarşılıqlı anlaşma və hərtərəfli əməkdaşlığın möhkəmlənməsində mühüm xidməti olduğu göstərilmişdir. 1987-ci il oktyabrın 14-də Heydər Əliyev Küveytin neft naziri Əli əl-Xəlifi qəbul etmişdi. Söhbətdə sovet-Küveyt münasibətlərinin müxtəlif aspektləri, həmçinin İran körfəzində vəziyyət və İran-İraq konflikti ətrafında məsələlər müzakirə edilmişdir.

Tarixi sənədlərdən göründüyü kimi, Ulu Öndər SSRİ rəhbərliyində işlədiyi dövrdə də dünyada sülhün, sabitliyin bərqərar olmasına öz töhfəsini vermişdir. Onun Kremldə yüksələn nüfuzu, dünyanın siyasi həyatında artan rolu əleyhdarlarında qısqanclıq yaratmaya bilməzdi. Xüsusilə ermənipərəst və Qarabağı bu mənfur millətə "bağışlamaq" öhdəliyi götürmüş Mixail Qorbaçovu narahat etməyə bilməzdi. Odur ki, elə SSRİ rəhbəri Qorbaçovun əli ilə xalqımızın böyük oğlu Heydər Əliyevə qarşı Kreml divarları arasında məkrli planlar qurulurdu. Kremlin "daxili qanunları"na yaxşı bələd olan Ulu Öndər özünün uzaqgörən gedişi ilə Qorbaçovun planını alt-üst etdi və 1987-ci ildə tutduğu yüksək vəzifədən istefa verdi.

Qarşıda isə Azərbaycanı müstəqillik yoluna çıxarmaq, onu qorumaq, möhkəmlətmək üçün böyük mücadilələr var idi...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Şərqi Zəngəzurdan reportaj

# “İLHAM ƏLİYEV bizi cənnətimizə qaytardı”



## 31 ildən sonra doğma yurdlarına dönən laçınlılar onlara bu xoşbəxtliyi yaşadan Prezidentə ömür boyu minnətdar olacaqlarını bildirdilər

*Gözəl təbiəti, yaraşıqlı binaları, əzəmətli dağları ilə gözoxşayan Laçındayıq...*

*Burada hər şey gözəldir. Buranın gözəlliyini görən təəccüblənmədən bu mənzərəni seyr edə bilməz. Sanki möcüzələr adasına düşmüşük...*

*Bir yandan Tanrının yaratdığı füsunkar təbiət, əzəmətli dağlar, başı buludlara dirənən şiş qayalar, gurultu ilə axan dağ çayları, bir yandan da insan əli ilə yaradılan gözəlliklər adamı valeh edir...*

*Görməyən inanmaz, görən burada möcüzə baş verdiyini zənn edər. Cəmi doqquz ay bundan əvvəl televiziya ekranlarından erməni vandallarının xarabazara çevirdikləri, miskin bir Laçını seyr etmişdik.*

*İndi isə gözlərimiz qarşısında gözəl, bənzərsiz, yaraşıqlı evləri, bərpa olunan gözəl binaları, gülü, çiçəyi ilə cənnətə bənzəyən bir Laçındayıq... Gül-çiçəyin qoxusu bir yana, təndir çörəyinin ətrafa yayılmış ətri istər-istəməz bizi özünə çəkir. Çörək bişən evə yaxınlaşırıq...*

### İlham Əliyev bizə atalıq etdi

Sanki ev yiyəsi bizi gözləyirmiş. Mehribanlıqla küçə qapısını açaraq bizə yaxınlaşıb "Cənnətə xoş gəlmisiniz" deyir. Sonra da əlavə edir: "Qonağın qisməti özündən qabaq gələr. Halal çörəyimdən kəsməsəniz sizdən inciyərəm. Keçin həyətə, qonağım olun. Həm də dövlətimizin bizə yaratdığı cənnəti gözünüzlə görün..."

İsgəndər Nəcəfov 5 ailə üzvü ilə Laçına ilk qayıdan 20 ailədən biridir. Ailənin kiçiyi 3 yaşlı Tuncaydır. Tuncay babasına rahatlıq vermir. Həm babasına, həm də bizə tez-tez suallar verir.

İsgəndər deyir ki, bu günümüzə görə əlim Allaha açılı qalıb. Gecə-gündüz şəhidlərimizə rəhmət diləyir, Prezidentimizə, əsgərlərimizə, dövlətimizə dua edirik. 31 illik qaçqın həyatından sonra öz evinə dönmək, bu gözəlliyi görmək heç yuxumuza da girməzdi. Hərdən düşünürəm ki, bu, gerçək deyil, yəqin biz yuxu görürük. Mən 100 il yaşasaydım, evimi, həyətimi bu gözəllikdə bərpa edə bilməzdim. 31 illik qaçqınlıq dövründə yataqxanalarda, dar otaqlarda çəkmədiyimiz zülm qalmamışdı. Bizə deyəndə ki, Laçına qayıdırsınız, sevincimdən ürəyim az qalmışdı partlasın. Gəlib bu gözəlliyi görəndə gözlərimə inanmadım. Düzdür, bərpa olan öz evimizdir. Səmimi olacağam, amma evimiz heç vaxt bu gözəllikdə olmayıb. Bunu adama nə qardaş etməz, nə dost bağışlamaz. Bunu etsə, bir ata edər. O da imkanı olsa. Bax, İlham Əliyev də bizə belə atalıq etdi. Var olsun dövlətimiz! Sağ olsun Prezidentimiz! Oturub düşünürəm ki, Allah onu bizə bir xilaskar kimi göndərib.

Söhbətə İsgəndərin xanımı Könül Nəcəfova qoşulur:

- Laçından çıxanda 21 yaşım vardı. Quru canımızı götürüb qaçmışdıq. O günləri xatırlayanda dəhşətə gəlirəm. Onda yaşamaqdan çox ölmək istəyirdim. İndi düşünürəm ki, bu gözəlliklər, gördüyünüz bu cənnət çəkdiyimiz zülmün mükafatıdır. Qızım Gilənin uşaqları İlknurla Ümid də bizimlə gəliblər. İllərdir qonaq üzünə həsrət qalmışdıq. Qohum-əqrəbalarımız da qaçqınlıq həyatı yaşadıqları üçün nə qonaq gedə bilirdik, nə də yataqxana otaqlarında qonaq qəbul edə bilirdik. Nəvələrimiz, övladlarımız soruşurlar ki, buradan çıxanda da bu ev, bu həyət belə gözəl olub? Deyirəm ki, bu şəraiti bizə dövlət baba yaradıb. Bu evin açarlarını bizə Prezidentimiz öz əli ilə verib. Bütün bunlara görə biz dövlətimizə, Prezidentimizə duaçıyıq.

İsgəndər doğma yurda qayıtdıqdan sonra işlə də təmin olunub. Deyir ki, Bakıda yaşayanda çilingər işləyirdi. Burada da çilingər işləyir. Əməkhaqqı da əladır. Yoldaşına da iş təklif olunub.



**...Laçına gələndə cənab Prezident qonağım oldu. Evimin açarlarını mənə özü bağışladı. Mənim başım çox bəlalar çəkib. Qaçqınlıq dövründə iki oğlumu, ömür-gün yoldaşımı itirmişəm. İki nəvəmi özüm böyütmüşəm. Şükür ki, indi öz evimdəyəm. Bu gözəlliyi bizə yaşadan Prezidentimizə minnətdaram. Oğlanlarım dünyasını dəyişsə də, özümü tənha hesab etmirəm. Arxamda dövlətim, İlham Əliyev kimi Prezidentim var. Prezidentimiz özü mənə deyib ki, nə sözün, dərdin olsa, mənə de. Laçına hər gələndə sənə baş çəkəcəyəm...**







**...İllərdir qonaq üzünə həsrət qalmışdıq. Qohum-əqrəbalarımız da qaçqınlıq həyatı yaşadıqları üçün nə qonaq gedə bilirdik, nə də yataqxana otaqlarında qonaq qəbul edə bilirdik. Nəvələrimiz, övladlarımız soruşurlar ki, buradan çıxanda da bu ev, bu həyət belə gözəl olub? Deyirəm ki, bu şəraiti bizə dövlət baba yaradıb. Bu evin açarlarını bizə Prezidentimiz öz əli ilə verib. Bütün bunlara görə biz dövlətimizə, Prezidentimizə duaçıyıq...**







Ailənin kiçiyi, Laçının 3 yaşlı ən kiçik sakini Tuncay deyir ki, indi hamı mənə cənab polkovnik deyir (Tuncay hərbi uniformanı çox sevir. Babası deyir ki, yatanda da paltarını çıxarmaq istəmir). Babama da demişəm, siz də bilin, böyüyəndə əsgər olacağam.Vətənimizi düşməndən qoruyacağam.

Tuncay əli ilə qarşı tərəfi, hayların yaşadığı Dığ kəndini göstərir. Atam deyir ki, orada ermənilər yaşayır. Elə əsgər olacağam ki, düşmənlərimizi pis niyyətlə torpağımıza baxmağa belə qoymayacağam.

### İlham Əliyev sönmüş ocaqlarımızı yenidən yandırdı

Laçının ən qocaman sakini, 79 yaşlı Əməkdar müəllim Ruqiyyə Xəlilovanın da qonağı olduq. Olduqca qıvraq, yaşından cavan görünən Ruqiyyə xanım deyir ki, onu yaşadan Laçına qayıtmaq ümidi olub: "1992-ci ildə Şuşa işğal olunduqdan sonra Laçını da itirmək qorxusu ilə yaşayırdıq. Çox çəkmədi ki, düşündüklərimiz başımıza gəldi. Göydən elə bil od yağırdı. Kişilər öndə düşmənlə üz-üzə durmuşdu. Bizə deyirdilər ki, siz birtəhər qaçın, namusumuza ləkə düşməsin.

O dəhşətli günləri yada salmaq, xatırlamaq belə çox çətindir. Laçın bir qala idi. Amma sahibsizlik, xəyanət, başıpozuqluq nəticəsində Laçını itirdik. Laçın düşmənin yüzillik arzusu idisə, bir yandan da siyasi oyunların qurbanı oldu. Qaçqınlıq dövründə başımıza gəlməyən oyun qalmadı.

Əvvəllər hamı deyirdi ki, Laçın getdisə, bir də qayıtmaz. Amma Heydər Əliyev hakimiyyətə gələndən sonra qəti əmin idim ki, Ulu Öndər torpağı düşməndə qoymayacaq. 44 il müəllim işləmişəm. Dərs dediyim şagirdlər arasında yüksək dövlət qulluğunda, hüquq-mühafizə orqanlarında çalışanlar çoxdur. Həmişə şagirdlərimə deyirdim ki, əsas dövlətdir. Heydər Əliyev hakimiyyətə gəlməsəydi, dövlət də məhv olacaqdı. Bütövlükdə Azərbaycan gedəcəkdi. Gəldi, dövləti dağılmaqdan, xalqı vətəndaş müharibəsindən xilas etdi.

Deyirdim ki, Heydər Əliyev düşməndə torpaq qoymaz! Mütləq torpaqlarımız düşməndən geri alınacaq. Bilirsiniz, dünyadan köçəndə də vətənin xilasını, Şuşanın, Qarabağın azad olunmasını siyasi varisinə vəsiyyət edib. Özü dövləti, oğlu isə Qarabağı, bu cənnət Laçını, Şuşanı xilas etdi. Demək, Allah bu ailəni xilasedicilik missiyası ilə vəzifələndirib".

Laçına gələndə cənab Prezident onların qonağı olub: "Evimin açarlarını mənə özü bağışladı. Mənim başım çox bəlalar çəkib. Qaçqınlıq dövründə iki oğlumu, ömür-gün yoldaşımı itirmişəm. İki nəvəmi özüm böyütmüşəm. Şükür ki, indi öz evimdəyəm. Bu gözəlliyi bizə yaşadan Prezidentimizə minnətdaram. Oğlanlarım dünyasını dəyişsə də, özümü tənha hesab etmirəm. Arxamda dövlətim, İlham Əliyev kimi Prezidentim var. Prezidentimiz özü mənə deyib ki, nə sözün, dərdin olsa, mənə de. Laçına hər gələndə sənə baş çəkəcəyəm.

Hamının dərd-sərini özü öyrənirdi. Allaha şükür, daha heç bir dərdimiz yoxdur. Fikir verin, Prezidentimiz ermənilərin xaraba qoyduqları Laçını cənnətə döndərib. Ermənilərin söndürdüyü işığımızı yandırıb. Sözünü tutan adamdır, heç vaxt elə-belə söz deməz bizim Prezident. Demişdi, biz o torpaqlara qayıdacağıq, qaytardı. Qarabağı işğalçılardan azad edəndən demişdi ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Al, bu da sizə cənnət. Ölsəm də dərdim yoxdur. İlham Əliyevin sayəsində bu dünyada da cənnətdə yaşadıq. Öləndə də Laçın kimi bir cənnətdə torpağa qoyulacağam".

### Dövlətimlə, Prezidentimlə fəxr edirəm

Laçında olarkən yaşıllaşdırma və abadlıq idarəsində çalışan Rəşad Mirzəyevin də evində olduq. Rəşadın iki qızı var. Fatimə və Zəhra. Ömür-gün yoldaşı Ülviyyə xanım müəllimdir.

Rəşad deyir ki, Laçın təbii istehkamdır. Təbii qaladır. Belə bir alınmaz qalanı Prezidentimiz güllə atmadan geri qaytardı. İllərlə üstümüzdə olan ağır yükü götürdü. Üzümüzün qarasını təmizlədi. Prezidentimlə qürur duyuram. Dövlətimlə fəxr edirəm. Laçında gedən abadlıq-quruculuq işlərini ermənilər görür. İllərlə dağıdıb xarabazarlıqlara çevirdikləri torpaqlarda bu mənzərəni görən ermənilər anlayırlar ki, biz torpağın sahibi olduğumuz üçün qururuq, yaradırıq. Bu torpaqlara yenidən həyat veririk. Görünür, ermənilər buradan gedəcəklərini bilirlərmiş. Ona görə dağıtmaqla, talamaqla məşğul olublar. Heç vaxt xəyal edə bilməzdim ki, Laçın bu qədər gözəlləşə bilər. Biz nə vaxtsa belə gözəl şəraiti olan evlərdə, cənnətlə müqayisə oluna biləcək bir məkanda yaşayacağıq. Bunu bizim xilaskar Prezidentimiz edir. Bizə bu dünyada cənnəti yaşatdığına görə Prezidentimizə minnətdaram.

**...Laçında olduğumuza inanmırlar. Bəlkə də haqlıdırlar. Doqquz aya bu gözəlliyi yaratmaq üçün gərək möcüzə baş versin. Amma bu möcüzə yox, həqiqətdir. Bu gözəlliklər Prezidentimizin öz vətəndaşlarına olan sevgisinin ifadə formasıdır. Dövlətimizlə, dövlətimizin başçısı ilə fəxr edirik...**





Rəşadın qızları Fatimə ilə Zəhra deyirlər ki, Laçın haqqında valideynlərindən, məktəbdə müəllimlərdən eşidiblər: "Buraya ilk dəfə gələndə düşündük ki, yəqin valideynlər bizimlə zarafat edir. Yəqin hansısa Avropa ölkələrindən birinə səyahət etmişik. Burada Allahın və insanların əlləri ilə yaratdıqları möcüzəni, gözəllikləri görüb gördüklərimizə inana bilmirdik. Bakıda olan sinif yoldaşlarımızla, rəfiqələrimizlə telefonla əlaqə saxlayanda bizim Laçında olduğumuza inanmırlar. Bəlkə də haqlıdırlar. Doqquz aya bu gözəlliyi yaratmaq üçün gərək möcüzə baş versin. Amma bu möcüzə yox, həqiqətdir. Bu gözəlliklər Prezidentimizin öz vətəndaşlarına olan sevgisinin ifadə formasıdır. Dövlətimizlə, dövlətimizin başçısı ilə fəxr edirik. Çalışıb yaxşı oxuyacaq, bu vətənə olan borcumuzu layiqli vətəndaş olmaqla qaytaracağıq".

*Yolboyu Laçın istiqamətinə doğru aramsız olaraq maşın-maşın insanların hərəkət etdiyinə şahid olduq. Kimi yük maşınlarında arı təknələri, kimi mal-qara ilə geri dönürdü. İlk dəfə Laçına dönən laçınlılardan əyilib bu müqəddəs torpağı öpənləri də gördük...*

*(ardı var)*

***Elşən QƏNİYEV,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Laçın- Bakı*

# REGİONLAR

## Qazaxlılar Milli Qurtuluş Gününü qeyd ediblər

**Qazaxda 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda tədbir keçirilib. Ulu Öndərə həsr olunmuş kitablardan ibarət sərginin nümayişindən sonra Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli film göstərilib.**

Tədbiri Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açaraq Ulu Öndərin şərəfli həyat yolundan söhbət açmış, onun doğma Azərbaycanın inkişafı üçün göstərdiyi misilsiz xidmətlərdən danışıb. Qeyd edib ki, Ulu Öndər dərin zəkası və uzaqgörən siyasəti ilə Azərbaycanı qısa vaxt ərzində məhvolma təhlükəsindən xilas edib: "Heydər Əliyevin həyata keçirdiyi islahatlar sayəsində ölkədə iqtisadiyyat, kənd təsərrüfatı, elm, təhsil, səhiyyə, mədəniyyət və ümumiyyətlə, bütün sahələr inkişaf etməyə başlayıb".

Sonra rayondakı Heydər Əliyev Mərkəzinin direktoru Ceyhunə Hüseynova, mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru Fəridə Xudiyeva, mərkəzi xəstəxananın publik hüquqi şəxsi Gültac Qədiməliyeva, Əməkdar jurnalist Sərhəd Məmmədov çıxış edərək görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın inkişafı naminə gördüyü işlərdən danışmışlar. Azərbaycan Yazıçılar Birliyinin üzvü, Qaymaqlı kənd Folklor evinin müdiri şair Kazım Kazımlı Heydər Əliyevə həsr etdiyi şeirlərindən nümunələr səsləndirib. Tədbir Birinci Qarabağ müharibəsi şəhidi Fidat Məmmədovun bacısı Hicranə Əhmədqızının, Azərbaycan Yazıçılar Birliyinin üzvləri Gülsənəm Cəlilovanın, Yasin Cavanın, Bilal Qocanın və başqalarının çıxışları ilə başa çatıb.

***S.ƏLİYEV, "Azərbaycan"***

## Tədarük məntəqələrinə 328 ton yaş barama təhvil verilib



**Ölkədə barama istehsalı mövsümü başa çatmaq üzrədir. Bu il Azərbaycanın 41 rayonunda yaş barama tədarük olunur. Bu günədək kümçülər tərəfindən tədarük məntəqələrinə 328 ton yaş barama təhvil verilib.**

Bəzi rayonlarda barama tədarükü artıq başa çatıb. 2023-cü ildə respublika üzrə ən çox yaş barama Zərdab rayonunda tədarük olunub. Zərdablı kümçülər tədarük məntəqələrinə 52,865 ton yaş barama təhvil veriblər. Ağcabədi (34,326 ton), Zaqatala (27,865 ton), Balakən (27,855 ton), Bərdə (20,982 ton), Tərtər (14,475 ton), Füzuli (10,361 ton), Lənkəran (9,818 ton), Sabirabad (9,287 ton), Ağdam (9,157 ton) və Yevlax (8,425 ton) ən çox yaş barama tədarük edən rayonlardır.

Kümçülərlə imzalanan müqaviləyə əsasən, istehsal olunmuş yaş barama müvafiq qurum tərəfindən 5 manata təhvil alınacaq, dövlət isə istehsal olunan hər kiloqram yaş baramaya görə kümçülərə 6 manat subsidiya ödəyəcək.

Yaş barama tədarükü davam edir.

## Azərbaycanda alman irsi

### Göygöldə bu irsə hörmət və diqqət var







**Ölkəmizin dilbər guşələrindən olan Göygöl tarixən beynəlmiləl şəhər olub. Uzun illərdir burada müxtəlif millətlərin nümayəndələri dost və mehribanlıq şəraitində yaşamış, bir-birinin xeyrində, şərində yaxından iştirak etmişlər. Bu gün də həmin dostluqdan söhbət düşəndə yaşlı nəslin nümayəndələri ürəklərində yaşatdıqları xatirələri həvəslə danışır, gənclərə bu dostluqdan bəhrələnməyi tovsiyə edirlər.**

Göygöl şəhərinə daxil olanda ilk diqqəti cəlb edən Azərbaycan arxitekturasına xas olmayan və səliqə ilə yanyana düzülmüş evlər olur. Həmin evlər 200 il əvvəl burada məskunlaşan almanlar tərəfindən inşa edilib. Qeyd edək ki, almanlar şəhərdə 6 küçə salmış, 600-ə qədər ev tikmişlər. Çöl divarı və eyvanı taxtadan olan evlər şəhərə xüsusi gözəllik verir. Uzun illərin təbii aşınmaları nəticəsində evlərin bir çoxu yararsız hala düşmüşdü. Ona görə də dövlət köməyinə ehtiyac yaranmışdı. Məsələ qaldırıldı, dövlət vəsait ayırdı və təmirə başlanıldı. Təmir-bərpa işləri zamanı evlərin həm milli arxitektura elementləri, həm də ilkin görkəmi qorunub saxlanıldı.

Almanların bu ərazilərə köçürülməsinin maraqlı tarixi var. Onlar bu ərazilərə 1818-ci ildə Vyutenburq knyazlığından mühacir kimi köçürülmüşlər. 124 ailə Helenendorf şəhərində (indiki Göygöldə) məskunlaşmışdır. Onlar Azərbaycanda maldarlıq, əkinçilik və üzümçülüklə məşğul olmuşlar. 1860-cı ildə Fohrer qardaşları rayonda şərabçılıq zavodu açmışdır. 1870-ci ildə müəssisə "Kistofer Fohrer və oğlanları" adını daşımışdır. 1892-ci ildə isə Fohrer öz təsərrüfatını 4 oğluna vermişdir. Həmin ildən müəssisə "Fohrer qardaşları" adını daşımışdır. Sonra qardaşlar pivə zavodu, 1890-cı ildə isə Gəncə çayı yaxınlığında dördmərtəbəli su dəyirmanı tikmişlər. 1903-cü ildə 13 kilometr məsafədən - Köşkü kəndi ilə Üçbulaq kəndi arasında yerləşən meşədəki bulaqlardan şəhərə su xətti çəkmişlər. 1911-ci ildə qardaşlar Azərbaycan ərazisində ilk dəfə olaraq su-elektrik stansiyası tikmişlər ki, bununla da bölgədə sənaye inkişaf etməyə başlamışdır. Keramit və kərpic istehsalı zavodları ilə davam edən bu inkişaf 1941-ci ilədək sürdü. Həmin il başlanan müharibə nəticəsində Stalinin əmri ilə Azərbaycanda məskunlaşan alman ailələri Qazaxıstana sürgün edildilər.

Amma almanlar məcburən bu yerləri tərk etsələr də, onların tarixi-mədəni irsi bu günədək qorunub saxlanır. Göygöllülər ölkəmizdə yüz illərlə hökm sürən multikulturalizm və tolerantlıq ənənələrinə sadiq qalaraq vaxtilə burada yaşamış almanların mədəni irsini - abidələrini və evləri qoruyub saxlamışlar. Özü də təkcə qoruyub saxlamamış, onları bərpa və təmir etmişlər. Məsələn, 1854-cü ildə almanlar tərəfindən inşa edilən Lüteran kilsəsi əsaslı şəkildə təmir edildikdən sonra tarix diyarşünaslıq muzeyi kimi fəaliyyətə başlamışdır. Bu gün muzeyin 2 mindən çox eksponatı var. Yeri gəlmişkən, qeyd edək ki, almanlar burada 1927-ci ildə Helenendorf Diyarşünaslıq Muzeyi də yaratmışlar. Təəssüf ki, sürgündən sonra həmin muzey də dağıdılmış, əşyaları itib-batmışdır.

Ümumiyyətlə, Göygöldə bir neçə tarixi muzey fəaliyyət göstərir. Onlardan biri alman iş adamına məxsus malikanədə yerləşən Göygöl Tarix Diyarşünaslıq Muzeyidir. Almanların Cənubi Qafqazda, eləcə də Azərbaycan ərazisində məskunlaşmasına aid sənədlər və maraqlı fotoların yer aldığı muzeydə vaxtilə ərazidə yaşamış almanların məişətini, adət-ənənəsini əks etdirən eksponatlar nümayiş etdirilir.

Rayonun yaşlı nəslinin nümayəndələri deyirlər ki, almanlar yerli əhali ilə çox mehriban və səmimi olmuşlar. Azərbaycanlı ailələrin uşaqları alman uşaqları ilə birlikdə böyüdükləri üçün alman uşaqları Azərbaycan, azərbaycanlı uşaqlar isə alman dilini mükəmməl bilirdilər.

Şəhərdə "Viktorun evi" kimi tanınan bir ev var. Bu, Göygöldə yaşayan sonuncu alman Viktor Klaynın evidir. Ev alman məişətinə aid əşyalarla zəngindir. Hətta burada yaşı yüz illərlə ölçülən bir piano da var. Viktor boş vaxtlarında özünün müşayiəti ilə alman mahnıları ifa edirdi. Bir dəfə bir azərbaycanlı həmin pianonu almaq üçün Viktora külli miqdarda pul təklif etmişdi. Onda Viktorun cavabı belə olmuşdu: "Mən nəinki pianonu, heç evin bir əşyasını da satmaram". Bu gün Göygölə gələn alman turistləri Viktor Klaynın evinə mütləq baş çəkirlər.

2007-ci ildə vəfat edən Viktordan sonra evdə yaşayan olmamış, burada yüngül təmir işləri aparılmışdı. Bu yaxınlarda rayon icra hakimiyyəti həmin evin əsaslı təmirinə başlamışdır. Təmir başa çatdıqdan sonra Viktor Klaynın evi muzey kimi istifadə ediləcək. Onu da bildirək ki, evdə olan bütün əşyalar olduğu kimi saxlanılmışdır.

XX əsrin əvvəllərində erməni millətçilərinin azərbaycanlılara qarşı apardıqları terror və soyqırımı siyasətindən burada yaşayan almanlar da zərər çəkmişlər. 1905-ci ildən 1907-ci ilin avqustunadək "Daşnaksütyun" partiyasının Gəncədə yerləşən yerli təşkilatının nümayəndələri Helenendorf almanlarını partiyanın xəzinəsinə xərac verməyə məcbur etmişlər. O cümlədən şərab istehsalçıları olan Fohrer qardaşlarını da buna cəlb etməyə çalışmışlar. Lakin onlar bu xəracı ödəməkdən imtina etmişlər və ona görə də qətlə yetirilmişlər.

Bu yaxınlarda rayon mərkəzində yerli əhalinin "yeraltı şəhər" adlandırdığı zirzəmilər aşkarlanmışdır. 1380 kvadratmetr sahəsi olan və 7 zaldan ibarət olan zirzəmilər ilkin məlumata görə, 1854-cü ildə inşa edilmişdir. Həqiqətən yeraltı şəhəri xatırladan zirzəmilərin hər birində havalandırma sistemi, ora düşmək üçün həm elektriklə, həm də mexaniki üsulla işləyən lift var. Ən böyük zalın sahəsi 40 metrin 8 metrədir. Tavanın hündürlüyü isə 5 metr 30 santimetrdir. Burada digər kiçik zallar da mövcuddur ki, onların tavan hündürlüyü 4 metr 30 santimetr, uzunu 30, eni 6 metrdir. "Yeraltı şəhər" aşkarlanan vaxt zirzəmilərdə çoxlu palıd taxtalarından çəlləklər və çəlləklərin hazırlanması üçün avadanlıqlar aşkar edilmişdir. Buradakı zalların hər birinin iki girişi var. Girişlərdən biri geniş, digəri xırdadır. Bütün zirzəmilərdən bir-birinə keçid mövcuddur.

Rayon icra hakimiyyətindən dedilər ki, yeraltı şəhər aşkar edilərkən tullantılarla dolu olub. Həmin tullantılar çıxarılmış, zirzəmilər işıqlandırma sistemi ilə təmin olunmuş və restavrasiya işlərinə başlanılmışdır. Hazırda təcrübəli ustaların köməyi ilə "yeraltı şəhər" ilkin görkəmə salınır. Qərara alınmışdır ki, restavrasiya işləri başa çatdırıldıqdan sonra "yeraltı şəhər" rayonun turizm marşrutuna əlavə edilsin.

Onu da vurğulayaq ki, Göygölə gələn xarici turistlərin əksəriyyəti almanlardır. Onlar babalarının qərib ölkədəki həyat və məişət şəraiti ilə tanış olurlar. Bunun üçün babalarının yaşadıqları evlərə baş çəkir, dəfn edildikləri məzarlıqları və adəd-ənənələrini əks etdirən muzeyləri ziyarət edirlər. Sözsüz ki, yeni aşkar edilmiş "yeraltı şəhər" də onların ziyarət edəcəkləri daha bir ünvan olacaq.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

**◆ Taxıl biçini**

## Qoy taxılımız həmişə tel-tel olsun

**Qarabağ həmişə Azərbaycanın bərəkət ünvanı sayılıb. Ermənilərin bu torpağa tamah salmalarının bir səbəbi də məhz budur. Amma nə olsun? Onlar bu bərəkətli torpaqları 30 il işğalda saxlasalar da, əllərindən qarət və talandan savayı heç nə gəlmədi. Çünki sürünmək üçün yarananlar uça bilməzlər.**

Bu gün isə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda həyat qaynayır, insanların üzü gülür, torpaqlarımız sahiblərinə bar verməyə tələsir. Yeri gəlmişkən, qeyd edək ki, bu günlər işğaldan azad olunmuş ərazilərdə əkilən taxıl sahələrinin statistikası açıqlanıb. Bildirilib ki, Ağdam rayonunda 5,5 min, Cəbrayılda 14,8 min, Füzulidə 3,2 min, Qubadlıda 14,1 min, Zəngilanda 7,7 min, Laçında 2 min, Xocavənd rayonunda 521 hektar olmaqla, ümumilikdə 48,7 min hektar əkinəyararlı torpaq sahəsi müəyyən edilib və həmin sahələrin 38,2 min hektarında payızlıq buğda, 9,6 min hektarında arpa əkilib. Bundan əlavə, Zəngilan rayonunda 450 hektarda yazlıq arpa, 400 hektarda yazlıq buğda, 300 hektarda vələmir, 50 hektarda qarğıdalı, Qubadlıda 290 hektarda yazlıq arpa, 50 hektarda qarğıdalı, Ağdamda 300, Cəbrayılda 260, Füzulidə 12,8, Xocavənddə 162 hektarda yazlıq arpa əkini aparılıb.



Ağdamın minalardan təmizlənən bağrında indi dən-dən olan taxıl zəmilərini gördükcə qəlbimiz qürur, fərəh hissi ilə dolur. Yaralı torpağa can verən insanlara, ordumuza, Ali Baş Komandana, zəhmətkeş insanlara minnətdarıq! Qoy taxılımız indiki kimi həmişə tel-tel olsun!

***Zəkurə QULİYEVA, "Azərbaycan"***

## Məqsəd biçini itkisiz və tez başa çatdırmaqdır

**Dünya əhalisinin sürətlə çoxalması ərzağa, xüsusilə çörəyə olan tələbatı artırıb. Problemi aradan qaldırmaq üçün indi kənd təsərrüfatında daha məhsuldar sortlardan istifadəyə üstünlük verilir.**



Digər problem planetdə iqlim dəyişikliyindən yaranan su qıtlığıdır. Azərbaycanda da su qıtlığı var və bu problem ölkəmiz üçün aktualdır. Məsələnin həlli istiqamətində ölkəmiz İsrail və Türkiyə şirkətləri ilə fəal əməkdaşlıq edir. Məqsəd sudan qənaətlə istifadəyə imkan verən texnologiyaların tətbiqinə nail olmaqdır.

İqlim dəyişikliyinin bir fəsadı da daşqınlardır. Azərbaycan ərazisində mayın ortalarından başlanan və hələ də davam edən şiddətli yağışlar və daşqınlar kənd təsərrüfatına, o cümlədən taxılçılığa az ziyan vurmayıb. Odur ki, indi əsas məsələ əldə qalmış buğda və arpanı itkisiz yığmaqdır.

Biçindən söz düşmüşkən, son məlumata görə, hazırda ölkənin 38 rayonunda biçinə başlanılıb. İyun ayının 12-nin statistikasına əsasən, sahələrdən 370541 ton arpa, 24237 ton buğda yığılıb. Arpa sahələrinin təxminən 33 faizində biçin başa çatıb.

Biçin prosesinin ilk başladığı rayonlardan olan Sabirabadda payızlıq əkinlər dövründə 25975 hektar sahədə taxıl əkilib. Əkin sahələrinin 13313 hektarı buğda, 12662 hektarı arpa sahələridir. Göstərilən tarixədək Sabirabadda 7222 hektar sahədə biçin aparılıb, sahələrdən 28205 ton məhsul yığılıb. Orta məhsuldarlıq 39,1 sentnerdir.  Rayon üzrə arpa sahələrinin 60 faizində biçin yekunlaşıb. Biçinin vaxtında və itkisiz başa çatdırılması üçün "Aqroservis" ASC tərəfindən Sabirabada digər bölgələrdən əlavə kombaynlar dislokasiya edilib.

***"Azərbaycan"***

## Goranboyda da biçinə başlandı

**Ərzaq məhsullarından söz düşəndə ilk növbədə yada düşən taxıl olur. Çünki etibarlı ərzaq təminatında taxıl əvəzsizdir. Elə ona görə də bu vacib bitkinin istehsalının artırılması üçün ölkədə stimullaşdırıcı tədbirlər görülür və onlar nəticəsiz qalmır.**

Taxılçılıqda uğur qazanan rayonlardan biri də Goranboydur. Rayonda fəaliyyət göstərən fermerlər dövlətin verdiyi imtiyazlardan istifadə etməklə hər il yüksək göstəricilərə nail olurlar. Keçən il qazandıqları nailiyyəti təzələmək üçün bu il də gərgin əmək sərf edən taxılçılar sahələrdə bol məhsul yetişdirmişlər. Bu günlər rayonda arpa biçininə start verilmişdir.

Qeyd edək ki, cari ilin məhsulu üçün Goranboyda 23650 hektarda taxıl yetişdirilmişdir ki, onun da 15269 hektarı arpa, 8381 hektarı buğdadır. Biçinin optimal müddətdə aparılması üçün rayon icra hakimiyyətində mütəxəssislərdən ibarət xüsusi qərargah yaradılmışdır. Bundan başqa, biçində istifadə olunan bütün texnikaların işlək vəziyyətdə olması üçün təmir briqadaları təşkil edilmişdir. Mütəxəssislərin dediyinə görə, bu il də Goranboyda bol taxıl gözlənilir.

***S.ƏLİYEV, "Azərbaycan"***

## Lənkəranda "Avropa şəhərciyi"

**Lənkəran şəhər Heydər Əliyev xatirə parkında Avropa İttifaqının (Aİ) ənənəvi tədbiri - "Avropa şəhərciyi" keçirilib. Lənkəran Şəhər İcra Hakimiyyətinin və Aİ-nin təşkilatçılığı ilə keçirilən tədbirdə iştirakçılar Avropa İttifaqı ölkələri, onların tarixi, mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmaq imkanı əldə ediblər.**

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, Lənkəran ŞİH-in başçısı Taleh Qaraşov, Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko, həmçinin Aİ-yə daxil olan 12 ölkənin səfir və nümayəndələrinin iştirak etdikləri tədbirin rəsmi hissəsi Azərbaycan və Aİ-nin himnlərinin səsləndirilməsi ilə başlayıb. T.Qaraşov çıxış edərək bildirib ki, ölkəmizin Aİ ilə münasibətləri qarşılıqlı maraqlar çərçivəsində inkişaf edir. ŞİH-in başçısı həmçinin qeyd edib ki, ölkəmiz hər zaman mədəniyyətlərarası dialoqun aparılmasına açıqdır və Lənkəranda keçirilən "Avropa şəhərciyi" də qarşılıqlı mədəniyyət və adət-ənənələrin təbliğinə xidmət edir.

Qonaq Peter Mixalko Aİ ilə Azərbaycan arasında güclü tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayaraq qeyd edib ki, Aİ Azərbaycanla qarşılıqlı münasibətlərin inkişafında maraqlıdır. Onun sözlərinə görə, Aİ ölkə üzrə ilk regional inkişaf layihəsini "Avropa Lənkəran üçün" başlığı altında keçirir. Avropalı səfir regionda tək ali təhsil ocağı olan Lənkəran Dövlət Universiteti ilə qarşılıqlı tələbə və müəllim mübadiləsinin də yüksək səviyyədə həyata keçirildiyini söyləyib.

Sahib Məmmədov isə çıxışında bildirib ki, Aİ-yə daxil olan dövlətlər Azərbaycana ən çox investisiya qoyan ölkələr sırasındadırlar və bunun səbəbi ölkəmizin Avropa üçün etibarlı tərəfdaş olmasıdır. Nazir müavini Avropa ölkələri ilə münasibətlərin inkişafında dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əməyinin olduğunu ifadə edib.

Tədbirin rəsmi hissəsinin sonunda "Avropa şəhərciyi"ndə iştirak edən Aİ-yə üzv ölkələrin səfir və nümayəndələri lənkəranlıları doğma dillərində salamlayıblar. Sonra tədbir iştirakçıları parkda quraşdırılmış çadırlarda xüsusi stendlər vasitəsilə Aİ-nin Azərbaycandakı fəaliyyətini nümayiş etdirən, eləcə də Avropa xalqlarının mədəniyyət və adət-ənənələrini təbliğ edən təqdimatlarla tanış olublar.




Həmin gün Lənkəranda Azərbaycan Avtomobil Federasiyası tərəfindən Bakı-Lənkəran marşrutu üzrə təşkil olunan idman avtomobillərinin yürüşünün iştirakçıları da "Avropa şəhərciyi"nə qatılıblar.

Tədbir "Nənələr" folklor qrupu, Çinarə Məlikzadə və "Ahmedowsky trio" qrupunun iştirak etdikləri konsertlə yekunlaşıb.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Naftalanla Xorvatiyanın İvaniç-Qrad şəhərləri qardaşlaşıb

**Xorvatiya Respublikasının İvaniç-Qrad və Azərbaycanın Naftalan şəhərləri arasında əməkdaşlıq xartiyası imzalanmışdır.**







"Şəhər günü"nə təsadüf edən tədbirdə öncə Azərbaycan nümayəndə heyəti tədbir iştirakçıları ilə birlikdə Xorvatiyada Vətən müharibəsində həlak olan şəhidlərin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoymuşlar.

Sonra İvaniç-Qrad Şəhər Şurasının böyük zalında tədbir işini davam etdirmişdir. Şəhər fəallarının və Naftalan nümayəndə heyətinin- ŞİH başçısı Vüqar Novruzovun və ŞİH-in sektor müdiri Ülfət Əliyevin, Azərbaycanın Xorvatiyadakı səfirinin birinci katibi Zaur Abbasovun iştirakı ilə dostluq və qardaşlıq haqqında xartiya imzalanmışdır. Sənədi Azərbaycan tərəfindən Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Xorvatiya tərəfindən İvaniç-Qrad şəhərinin meri Javor Bojan Les imzalamışlar.

Mərasimdə qeyd edilmişdir ki, xartiyanın imzalanması şəhərlər arasında humanitar, mədəni və turistik əlaqələrin inkişafına və hər iki dost ölkənin sakinləri arasında münasibətlərin qurulmasına töhfə verəcək. Sonra qarşılıqlı xatirə hədiyyələri təqdim olunmuşdur.

Günün sonunda keçirilən ikitərəfli görüşdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı, İvaniç-Qrad şəhərinin meri, Zaqreb regional əyaləti rəhbərinin müavini Ervin Kolarec, Zaqreb regional əyalətinin Səhiyyə, Sosial Rifah və Xorvat Veteranları üzrə inzibati Departamentinin rəhbəri xanım Ksenija Culyak iştirak etmişlər. Görüşdə vurğulanmışdır ki, xartiyanın imzalanması xalqlarımızın daha da yaxınlaşmasına, oxşar dəyərlərin paylaşılmasına geniş imkanlar yaradacaqdır. Həmçinin görüşdə Naftalan və İvaniç-Qradın oxşar şəhərlər olması, iki şəhər arasında turizm sahəsində davamlı və faydalı əlaqələrin yaradılmasının əhəmiyyəti qeyd olunmuşdur. Sonda İvaniç-Qrad şəhərinin meri və nümayəndə heyəti Azərbaycana - Naftalan şəhərinə dəvət olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Kür çayına körpə balıqlar buraxılıb

**Qarayazı Dövlət Təbiət Qoruğunun Poylu qəsəbəsi ərazisində su bioresurslarının artırılması və qorunması məqsədilə Kür çayına körpə balıqlar buraxılmışdır.**



Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucovun, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Rəşad Allahverdiyevin, xidmətin məsul əməkdaşları Samir Süleymanov və Vüsal Xankişiyevin, eləcə də ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə qeyd olunub ki, dövlət tərəfindən Azərbaycanın və Qafqaz regionunun su hövzələrinin qorunması və bərpası üçün bir sıra tədbirlər görülür. Xüsusilə balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ körpə balıqların təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirmənin qarşısının alınması, ölkəmizin su hövzələrindəki balıq növlərinin təbii populyasiyaları insan fəaliyyətinin mənfi təsirindən qorunması kimi mühüm tədbirlər müsbət nəticələr verir.

Tədbirdə vətəndaşların balıq ehtiyatları artımının qarşısını alan hərəkətlərdən çəkindirən müraciətlər olmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Krivoy Roqda bu gün matəmdir

**Rusiyanın Ukraynaya genişmiqyaslı hərbi müdaxiləsinin 475-ci günündə Rusiya qoşunları qonşu ölkənin ələ keçirdiyi yaşayış məntəqələrini nəzarətdə saxlamaq cəhdlərini davam etdirir. Ukraynanın silahlı qüvvələri və ərazi müdafiə bölmələri təcavüzə müqavimət göstərirlər.**





İyunun 13-də Krivoy Roq şəhərinin atəşə tutulması nəticəsində ölənlərin sayı 11 nəfərə çatıb. Bu barədə şəhərin meri Aleksandr Vilkul bildirib. Yerli vaxtla saat 13:00-a olan məlumata görə, daha 28 nəfər yaralanıb. Şəhərə atılan 3 qanadlı raket havada vurulub. İyunun 14-ü Krivoy Roqda matəm günü elan edilib.

Son məlumata görə, ABŞ Administrasiyası "M1 Abrams" tankları üçün tükənmiş uran mərmilərinin Ukraynaya təhvil verilməsinə razılaşa bilər. Bunu "The Wall Street Journal" qəzeti adı açıqlanmayan rəsmilərə istinadən yazır. Yüksəksəviyyəli administrasiya rəsmisi bildirib ki, belə bir qərara heç bir maneə yoxdur. Amerika Birləşmiş Ştatların Müdafiə Nazirliyi Kiyevə verilən tankları məhz belə sursatla təmin etməyi qətiyyətlə tövsiyə edib.

Bu arada Ukraynanın Kanberradakı səfiri Vasili Miroşniçenko AFP agentliyinə müsahibəsində bildirib ki, Ukrayna Avstraliyadan 41 F-18 hücum təyyarəsinin vəziyyəti ilə bağlı məlumat istəyib. Hazırda təyyarələr istismardan çıxarılıb və Sidneyin şimalındakı hərbi bazadadır. Kiyev həmin təyyarələri əldə etmək istəyir. Hərbi strateq və Avstraliya Müdafiə Qüvvələrinin istefada olan general-mayoru Mik Rayan qeyd edib ki, F-18-lərin Ukrayna tərəfinə təhvil verilməsi texnika və təyyarə avadanlığı vahidlərinin sayına görə üstün olan Rusiya ilə "sahəni bərabərləşdirməyə" kömək edəcək.

Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, bu ölkənin hərbi qüvvələri Zaporojye istiqamətində Almaniya istehsalı olan bir neçə Leopard tankı və ABŞ istehsalı "M2 Bradley" piyada döyüş maşınını ələ keçirib. Ukrayna tərəfi hələlik bu məlumatı şərh etməyib.

Nazirlikdən bildiriblər ki, daha 7 "könüllü birlik" - 3 briqada və 4 ayrı dəstə Rusiya Müdafiə Nazirliyi ilə müqavilə imzalayıb. Hansı bölmələrin söhbət getdiyi barədə məlumat verilməyib. Rusiya Müdafiə Nazirliyi adından sənədləri general-leytenant Vladimir Alekseyev imzalayıb.

İyunun 10-da hərbi idarənin rəisi Sergey Şoyqunun imzaladığı əmrə əsasən, Ukraynada cəbhədə yerləşən bütün "könüllü dəstələr" iyulun 1-dək Rusiya Müdafiə Nazirliyi ilə müqavilə bağlamalıdırlar.

Digər məlumata görə, Xerson yaxınlığında Dneprdə suyun səviyyəsi Kaxovsk Su-Elektrik Stansiyasının bəndinin dağıdılmasından sonra azalmaqda davam edir. Ukraynanın Daxili İşlər Nazirliyindən bildirilib ki, Dnepr çayının sağ sahilində 31 yaşayış məntəqəsi və işğal olunmuş ərazilərdə 17 yaşayış məntəqəsi su altında qalıb. Nazirlik əlavə edib ki, Xerson vilayətində baş vermiş texnogen fəlakətdən indiyədək 2757 nəfər təxliyə edilib, 17 nəfər həlak olub, itkin düşənlər var.

Bu arada Böyük Britaniyanın Müdafiə Nazirliyi kəşfiyyat məlumatlarına istinadən gündəlik yeniləməsində bildirib ki, son aylar Rusiya İrandan uzunmüddətli, yüksəkhəcmli pilotsuz təyyarələrin tədarükü üçün çalışır. Agentlik vurğulayır ki, bu silahları tədarük etməklə Tehran BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnaməsini pozur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN 100
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Azərbaycan-Rusiya münasibətləri möhkəm təməl üzərində uğurla inkişaf edir
Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri
Ali qonağın şərəfinə dövlət ziyafəti
Dünyanın aparıcı investisiya şirkətləri üçün Azərbaycanla əməkdaşlıq böyük önəm daşıyır
Qardaş gəldi
Prezident seçkilərindəki qalibiyyətindən sonra Rəcəb Tayyib Ərdoğan ilk xarici səfərini Azərbaycana etdi
Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Maliyyə Nazirliyi "Standard ənd Purz"un Azərbaycan üzrə reytinq xəsisliyini təəccüblə qarşılayır

**"Standard ənd Purz" (Standard and Poor's) beynəlxalq kredit reytinq agentliyi Azərbaycan üzrə nəşr etdiyi hesabatda (9 iyun 2023-cü il) ölkənin kredit reytinqinin müəyyən edilməsi zamanı bir sıra müsbət nailiyyətlərin əldə olunduğunu qeyd edib. Bu nailiyyətlərdən biri kimi neft hasilatının qismən azalmasına baxmayaraq, növbəti illər ərzində neft-qaz qiymətlərinin Azərbaycanın fiskal və tədiyyə balansının müsbət səviyyəsini dəstəkləyəcəyi göstərilir.**

Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bununla yanaşı, hesabatda Azərbaycan Dövlət Neft Fondunun xarici valyutada ehtiyatlarının artdığı, habelə eyni suveren reytinqə malik olan ölkələrlə müqayisədə ölkəmizin aşağı səviyyədə olan xarici dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin ortamüddətli perspektivdə daha da azalacağı göstərilməklə, Azərbaycanın yüksək xarici valyuta ehtiyat mövqeyinin suveren reytinq üçün əsas dəstəkçi olduğu qeyd edilib.

Reytinq agentliyinin hesabatında həmçinin Azərbaycanın qeyri-neft sektorunun 2022-ci ildə 9 faiz artdığı və bu artımın növbəti illərdə də davam edəcəyi bildirilib.

Qeyd edilənlərlə yanaşı, hesabatda Azərbaycanla Ermənistan arasında olan uzunmüddətli münaqişənin 2020-ci ildə başa çataraq ölkəmizin səyləri nəticəsində tərəflərin sülh müqaviləsinin bağlanmasına yaxınlaşması müsbət hal kimi vurğulanır.

Bu fonda Azərbaycan Respublikası Maliyyə Nazirliyi "Standard ənd Purz" agentliyinin dərc etdiyi hesabatda ölkənin reytinqi üzrə proqnoz göstəricinin belə "sabit"dən "müsbət"ə dəyişdirilməməsini böyük təəccüblə qarşılayır və agentlik tərəfindən ölkəmizin reytinqlərinə xəsislik nümayiş etdirildiyi fikrindədir.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 iyun 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan kreslo və stulların satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 iyun 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Əmlak Məsələləri Dövlət Xidmətinin "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

**EMİN RƏSULOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi II Uşaq xəstəlikləri kafedrasının professoru

**AMALİYA ƏYYUBOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Elmi hissəsinin müdiri dosent Samir Orucova atası, Kimya və onun tədrisi metodikası kafedrasının dosenti

**KAMAL ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5772
Sifariş 1496
Qiyməti 40 qəpik